

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Leyla Əliyeva və Arzu Əliyeva Qəbələdə "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşüblər



4

# 44 günlük müharibənin Zəfər səhifələrindən



2

SƏS
№ 188 (7113)
12 oktyabr 2024-cü il.
Qiymәti 60 qəpik

# Avrasiyanın ən nəhəng nəqliyyat arteriyasında Heydər Əliyev imzası




3

*Baykal-Amur Magistralının tikintisində ümummilli lider Heydər Əliyevin əvəzedilməz rolu heç vaxt unudulmayıb*

## "Media islahatları Azərbaycan mətbuatının yeni inkişaf mərhələsinə qədəm qoymasına təkan verib"



6

## "Qarabağın və Şərqi Zəngəzurun inkişafı diqqət mərkəzindədir"



8

## Təhsilin dərdi var, təhsil xəstədir...



8

## Yolayrıcında söhbət...



15

## Çinlidə fərasətə bax - Bakıda 330 min manatlıq saat oğurlayıb...



16

# 44 günlük müharibənin Zəfər səhifələrindən

***"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazırdı. Həmin gün 14 oktyabr tarixində 30 ilə yaxın Ermənistanın işğalı altında olan əzəli torpaqlarımız Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad olundu və tariximizdə yeni səhifə yazıldı.***



2020-ci ilin 13 oktyabr tarixində Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" telekanalına müsahibəsində "Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi və digər təhqirləri, həqarəti Azərbaycan xalqını haqlı olaraq hiddətləndirdi. Biz onun bu hərəkətlərinin heyfini bu gün döyüş meydanında alırıq, əvəzini çıxırıq. Azərbaycan əsgəri döyüş meydanında göstərir ki, kim haqlıdır, kim haqsızdır. Biz gücümüzü, xalqımızın iradəsini döyüş meydanında göstəririk. Paşinyanın digər təxribatları da cavabsız qalmır və qalmayacaq. Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır", - deyə bildirmişdir: "Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimlərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq. Mən demişdim ki, Azərbaycan xalqının ləyaqəti ilə oynamasın, diqqətli olsun, ehtiyatlı olsun. O zənn edirdi ki, dünya erməniliyi onu müdafiə edəcək, o zənn edirdi ki, böyük dövlətlər gəlib onun yerinə vuruşacaq, bu gün də bunu istəyir".

## "2 SAAT YARIM ƏRZİNDƏ MİNDƏN ÇOX MƏRMİ TƏRTƏR ŞƏHƏRİNƏ DÜŞÜB"

Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə bir gündə dəfələrlə zəng etdiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: "O, telefon zənglərinin bir hissəsi mətbuata verildi, bir hissəsi isə verilmədi. Bizdə məlumat var ki, bu son atəşkəsdən sonra da Paşinyan Putinə telefonla zəng etmişdir. Onun bu hərəkətləri, əlbəttə, göstərir ki, bu adam panikaya qapılıb, təşviş içindədir, özünü itirib. Azərbaycan Ordusu döyüş meydanında düşmənə elə sarsıdıcı zərbələr endirir ki, artıq onlar qeyri-adekvat duruma düşüblər".

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan bu gün döyüş meydanında uduzduğunu aydın dərk etdiyindən beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmir və Azərbaycan Ordusu öz torpaqlarının azad olunması məqsədi ilə müharibəsini davam etdirirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibəsi zamanı Ona ünvanlanan "Cənab Prezident, hazırda Ermənistan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutur. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirir. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alır. Bundan məqsəd panika, xaos və qorxu yaratmaqdırmı? Siz hazırda Azərbaycan xalqının bu psixologiyasını necə görürsünüz?" sualını belə cavablandırmışdı: "Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir. Dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə, bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Bu gün səhər mənə verilən məlumata görə, 100-dən çox mərmi



səhər saat 7-dən indi saat 10-un yarısıdır, 2 saat yarım ərzində mindən çox mərmi Tərtər şəhərinə düşüb. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin, Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir. Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

## 14 OKTYABR - TƏRTƏR, AĞDAM VƏ AĞCABƏDİ RAYONLARI ARTİLLERİYA ATƏŞİNƏ TUTULDU

Vətən müharibəsi dövründə də davam edən Ermənistanın növbəti cinayətləri, mülki əhaliyə qarşı edilən terrorlar çirkin siyasətin məntiqi idi. Belə ki, 2020-ci ilin oktyabrın 10-da Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirləri humanitar atəşkəs elan edilməsi haqqında bəyanat qəbul etmişdi. Lakin Ermənistan Respublikası nəinki buna əməl etməyib, əksinə, oktyabrın 11-də onu ciddi şəkildə pozaraq öz ərazisindən Gəncə və digər şəhərlərimizi "SKAD" tipli raket kompleksindən atəşə tutmuşdu. Bütövlükdə Ermənistanın bu addımı müharibə dövründə mülki əhalinin müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyasının və bu cür silahların mülki əhaliyə qarşı istifadəsini qadağan edən beynəlxalq sazişlərin müddəalarına ziddir. Ermənistanın bu cür silahlarla təchiz edənlər də həmin silahların qanunsuz istifadəsinə görə məsuliyyət daşıyırlar.

Oktyabrın 14-də səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulmuşdu. Ermənistanın humanitar atəşkəsi pozmasına baxmayaraq, rəşadətli Azərbaycan Ordusunun hər gün yeni kəndləri və şəhərləri işğaldan azad etməsi bizi Zəfər tariximizə yaxınlaşırdı. Azərbaycan Qalib xalq olduğunu bəyan etdi,

Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanamığından qaynaqlanırdı.Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub



olduğunu dünyaya göstərdi. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: "Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir". Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı".

## "AZƏRBAYCAN XALQI, İNDİKİ NƏSİL VƏ GƏLƏCƏK NƏSİLLƏR HƏMİŞƏ ŞƏHİDLƏRİMİZLƏ FƏXR EDƏCƏK"

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti və "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur", - deməsi böyük bir Zəfər tariximizə çevrildi. Bu tarix bu günün və gələcəyin nəsillərinə iftixar yaradan bir gün oldu.

***Zümrüd BAYRAMOVA***

# Avrasiyanın ən nəhəng nəqliyyat arteriyasında Heydər Əliyev imzası

## Baykal-Amur Magistralının tikintisində ümummilli lider Heydər Əliyevin əvəzedilməz rolu heç vaxt unudulmayıb

**Coğrafi mövqeyinə görə Azərbaycandan kifayət qədər uzaqda yerləşən, dünyanın ən uzun və ən böyük dəmiryol xətti şəbəkəsi olan Baykal-Amur Magistralının (BAM) yaradılması haqqında qərar SSRİ rəhbərliyi tərəfindən 1974-cü ildə qəbul edildi. Bugünkü nöqteyi-nəzərdən BAM nəinki Avrasiya nəqliyyat infrastrukturunun mühüm həlqəsi kimi qəbul edilir, həm də Böyük İpək yolunun ən mühüm elementi hesab olunur.**




ANALİZ

### 10 illik zəhmət və dünyanın ən böyük magistralı

Sovet İttifaqının iqtisadi möcüzələrindən sayılan Baykal-Amur Magistralının tikinti prosesində İttifaqın bütün ölkələrinin vətəndaşları yaxından iştirak edirdilər. Onların arasında xüsusi canfəşanlıqları ilə seçilən daha bir xalq var idi- azərbaycanlılar. Tikintidə işləyən azərbaycanlılar bu işə o zamanlar Azərbaycan SSR-in rəhbəri olan böyük azərbaycanlı Heydər Əliyevin sayəsində maraq göstərirdilər. 1974-cü ildə tikintisinə qərar verilən layihənin icrası məqsədilə Heydər Əliyevin tapşırığı ilə minlərlə gənc BAM-a yollandı.



BAM-ın 210-cu kilometrliyində Ulkan dəmiryolu stansiyası və yaxınlığındakı eyniadlı kəndin inşasında da azərbaycanlıların əməyi var. Stansiya və kənd təyin edilmiş vaxtdan da iki ay əvvəl azərbaycanlılar tərəfindən tikildi. Bütün işlərə Heydər Əliyev şəxsən nəzarət edirdi. Heydər Əliyevin xüsusi tapşırığına əsasən, Ulkan stansiyasının binasının dekorasiyasında Azərbaycan ornamentlərindən istifadə edilib. Binanın qapısından daxil olduqda hər addımda Azərbaycan nəfəsi, izi hiss olunur. Azərbaycan inşaatçılarının ilk briqadası buraya 1975-ci ilin əvvəllərində gəlmişdi. Ulkan azərbaycanlı fəhlələrin tikdiyi yeganə stansiya deyil. Onlar ikincisini də tikdilər – BAM-ın ən böyük stansiyalarından birinə çevrilən Anqoya, eləcə də eyniadlı kənd inşa edildi.

Baykal-Amur magistral xətti öz dövrünün ən möhtəşəm layihəsi idi. Tikintisinə 1974-cü ildə başlanan layihənin 1980-ci illərin ortalarında başa çatdırılması planlaşdırılırdı. Bu layihəyə 4324 kilometr dəmiryolu, minlərlə körpü, stansiya, yeni şəhər və qəsəbələr daxil olmalı idi. Heydər Əliyev əsrin nəhəng tikintisi Baykal-Amur Magistralının inşası üzrə yaradılmış dövlət komissiyasının sədri idi və işlərin gedişini tam nəzarətdə saxlayırdı. 1983-cü il martın 4-də SSRİ Nazirlər Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçirilən BAM-ın tikintisi üzrə komissiyasının iclasında onun tikintisinin ən aktual məsələləri müzakirə olundu. Heydər Əliyevin səyi və qətiyyəti sayəsində 1984-cü ildə Baykal-Amur magistral xətti istifadəyə verildi.

### Heydər Əliyev zəkasına Putin heyranlığı

Yeri gəlmişkən, bir neçə il əvvəl "Rossiya-24" telekanalında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Rusiyanın "BTS-MOST" Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Ruslan Baysarovla görüşü barədə yayımlanan videomaterialda bu barədə geniş söhbət də yer almışdı. Həmin görüşdə ümummilli lider Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini vəzifəsində çalışarkən həmin dövrdə dünyanın ən mürəkkəb tuneli sayılan və xarici ölkələrin şirkətlərinin inşa edə bilmədiyi Baykal-Amur Magistralındakı (BAM) Severomuyski tunelinin ulu öndərin birbaşa rəhbərliyi ilə uğurla tikildiyi xüsusi olaraq vurğulanmışdı. Vladimir Putin layihənin icrasında Heydər Əliyev zəkasından və əzmindən böyük hörmət və heyranlıqla bəhs etmişdi.

Ruslan Baysarov "Bamtonnelstroy"un inşa etdiyi iki tuneldən biri- Severomuyski tuneli ilə bağlı məlumat verərkən belə demişdi: "Xarici mütəxəssislər bu tuneli tikməkdən imtina edirdi və bizim də imtina etməyimizi təklif edirdilər. 1984-cü ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev tunel inşaatçılarını dəstəkləmək üçün bu tikintiyə gəlmişdi. O nə qədər çətin bir yükün altına girdiyinin fərqində idi. Amma bildiyiniz kimi, tunelin tikintisi başa çatdırıldı və o, indiyə qədər dünyada ən mürəkkəb tuneldir, çox maraqlı proyektdir.



Biz orada cəmi 45 kilometr tunel tikmişik, bu tunelin uzunluğu isə 15,5 kilometrdir. Rəhbərlik əvvəlcə cəmi 8 tunel planlaşdırmışdı. Heydər Əliyev gələndə mütəxəssislər ona izah etdilər ki, vəziyyət heç də istənilən kimi deyil, əlavə 2 dolanbac tunel tikilməsi də zəruridir. Heydər Əliyev "Bamtonnelstroy" işçiləri ilə birgə elə yerindəcə qərar qəbul etdi. Orada daha 2 dolanbac tunel tikildi. Təsəvvür edirsinizmi? Dünyanın ən mürəkkəb tuneli Heydər Əliyevin rəhbərliyi ilə tikildi. Bu, çox mürəkkəb, çox maraqlı iş idi və indiyə qədər dünyada ən mürəkkəb obyektlərdən biri kimi qalır".

Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitin bu ilin apelində Moskvada BAM-la bağlı keçirilən tədbirdə çıxış edərək deyib ki, mürəkkəb geoloji struktura və sərt iqlimə malik ərazidə magistral və dəmir yollarının çəkilməsi əsl qəhrəmanlıq nümunəsi olub: "BAM-ın ərsəyə gəlməsi Sakit okean regionu və Avropa ölkələri arasında ən qısa marşrut olmaqla Sibirin və Uzaq Şərqin təbii ehtiyatlarından səmərəli istifadə edilməsinə əlverişli şərait yaratdı. Heydər Əliyevin BAM üzrə kurator işlədiyi dövrdə tikinti işləri xeyli intensivləşib, qarşıya qoyulan məqsədlərə tam nail olunmuşdu".




### SSRİ-nin gözünü qorxudan layihə

Heydər Əliyevin birbaşa nəzarət etdiyi BAM-ın tikinti prosesi olduqca çətin və mürəkkəb proses idi. Bu layihə həm miqyasına görə dünyada analoqu olmayan layihə idi, həm də çoxsaylı problemlərə malik idi. Çünki ittifaqda BAM-ın tikintisinə münasibət birmənalı deyildi. O vaxta qədər yenidənqurma, abadlıq və yol infrastrukturunda bu böyüklükdə layihə olmamışdı, dünyanın ən nəhəng layihəsi SSRİ rəhbərliyinin gözünü qorxudurdu. Bu layihəyə qol qoymağa xarici şirkətlər də çəkinirdi.

Ancaq Heydər Əliyev ittifaq sənayesinin inkişafı məqsədilə həyata keçirdiyi bütün işlər kimi bu yükün altından da məharətlə çıxdı. BAM-ın inşasından illər sonra, 2008-ci il iyulun 18-də BAM-ın Anqoya stansiyasında istifadəyə verilən vağzala Azərbaycan xalqının ölməz oğlu Heydər Əliyevin adı verildi. Tədbirdə Moskva, Bakı, Severebaykalsk, İrkutsk və digər şəhərlərdən yüksəksəviyyəli qonaqların iştirakı BAM-ın tikintisində böyük əməyi olmuş böyük azərbaycanlının əziz xatirəsinə olan ehtiramın təzahürü idi. Düzdür, tikinti prosesində hər şey asan olmadı, çox problem yarandı, gözlənilməyən çətinliklər ortaya çıxdı. Severomuyski tunelinin çəkilişi zamanı fəhlələr böyük problemlərlə üzləşdilər, ağır torpaq, qrunt suları və qaz tullantıları işə mane olurdu. Layihə demək olar ki, dayanmışdı. Heydər Əliyev tikinti sahəsinə gəlir və vəziyyəti nəzərdən keçirdikdən sonra o, mühəndislər və fəhlələr ilə birlikdə iki əlavə döngə tunelinin tikintisinə qərar verir. Bu cür həll yolu ilə Heydər Əliyev bu infrastrukturun hələ də dünyanın ən mürəkkəb obyektlərindən biri hesab olunmasına səbəb olur.

### BAM niyə bu qədər əhəmiyyətli idi?

BAM-ın tikintisi 3 əsas problemin həlli demək idi. Birincisi, magistral yolun hərbi-strateji əhəmiyyəti, cənub dövlət sərhədindən nisbətən böyük məsafədə yerləşən Trans-Sibir dəmir yolunun ehtiyat hissəsinin yaradılması idi. İkincisi, nəqliyyat funksionallığı ölkənin şərqində eninə istiqamətli avtomobil yollarının ötürücülük qabiliyyətinin və daşıma qabiliyyətinin artırılmasından ibarət idi. Üçüncüsü, iqtisadi məsələ idi, Rusiyanın şərqində yeni xammal zonalarının istismarı, bu nəhəng ərazilərin məskunlaşması, iqtisadi inkişafı üçün dəmir yolu xətti mütləq lazım idi.

BAM-ın tikintisi Heydər Əliyev zəkasının nəhəngliyini bu gün bir daha sübut edir. BAM gələcəyə hesablanmış nəhəng bir layihə idi. Magistral tikilən zamanlarda ulu öndər Heydər Əliyevin nümayiş etdirdiyi böyük uzaqgörənliyi, bu layihə ilə bağlı göstərdiyi xidmətləri bu gün də yüksək səviyyələrdə etiraf və təqdir olunur. Baykal-Amur magistral xətti öz dövrünün nəinki irimiqyaslı logistika layihəsinə, həm də insan fədakarlığının nümunəsinə çevrildi. Bu fədakarlıqda ən böyük pay Azərbaycanın böyük oğlu Heydər Əliyevə, həmçinin minlərlə azərbaycanlıya düşür. Bu gün BAM Avrasiyanın ən böyük nəqliyyat arteriyası olaraq şərq və qərb arasında nəhəng bir sistem kimi qalır. Və BAM deyiləndə yada düşən ilk adlardan biri də, bu arteriyanın mərkəzində yerləşən stansiyada əbədiləşdirilmiş Heydər Əliyev adıdır.

*Lalə Mehralı*

# Leyla Əliyeva və Arzu Əliyeva Qəbələdə “Gənc arıçı” layihəsinin iştirakçısı ilə görüşüblər













Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva oktyabrın 10-da Qəbələdə “Gənc arıçı” layihəsinin iştirakçısı Rəfiqə Maxsudovanı evində ziyarət ediblər. Bu barədə AZƏRTAC-a IDEA İctimai Birliyindən məlumat verilib.

Qeyd edək ki, Leyla Əliyeva görüşdə gənc arıçı ailə ilə səmimi söhbət edib, fəaliyyəti ilə maraqlanıb, arıçılıq sahəsindəki ilk təcrübə və məhsuldarlıqla bağlı təəssüratlarını dinləyib. Öz növbəsində, layihə iştirakçısı Rəfiqə Maxsudova Leyla Əliyevaya göstərdiyi diqqət və dəstəyə görə minnətdarlığını bildirib, süzdüyü ilk balı xüsusi qablaşdırmada hədiyyə edib.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən “Gənc arıçı” layihəsinin növbəti mərhələsi çərçivəsində Qəbələ rayonunda 20 gənc arıçı dəstəklənib və onlar artıq öz ilk məhsullarını əldə etməyə başlayıblar.

Məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi yayılmasını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahını yaxşılaşdırmaq olan layihə çərçivəsində seçilən 20 gəncə peşəkar mütəxəssislərin iştirakı ilə bir aylıq təlim keçirilib. Təlimləri başa vuran gənclər arıçılıq təsərrüfatı üçün lazımi arı ailəsi və pətəkləri, arıçı geyimi, balsüzən aparat və digər ləvazimatlarla tam təchiz olunublar və onlara səmərəli fəaliyyətləri istiqamətində lazımi şərait yaradılıb.

Gənc arıçılar, həmçinin məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satışın təşkili dəstəyi ilə təmin ediləcəklər. Bu addımlar bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlı bal istehsalı mərhələsinə çatması üçün gənc arıçıların öz məhsullarını geniş müştəri bazarına çıxarmalarına və satışın səmərəli təşkilinə xidmət edəcək.

# İsrail mətbuatı Niderland parlamentini Azərbaycana qarşı qərəzli mövqeyinə görə qınayıb

***Dünyadakı münaqişələrə birtərəfli yanaşmada BMT Baş Assambleyası tək deyil. Belə ki, Niderland parlamentinin hazırladığı proqramda Azərbaycan ərazilərinin azad edilməsi “Dağlıq Qarabağın ələ keçirilməsi” adlandırılır. Bədnam qətnamədə Azərbaycan, həmçinin “etnik təmizləmə və mədəni irsə ziyan vurmaqda” ittiham olunur.***

AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış politoloq və siyasətçi, İsrailin keçmiş rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti Ayub Kara ölkəsinin populyar “Israel HaYom” nəşrində dərc olunmuş “BMT Baş Assambleyası və Niderland: münaqişənin həllinə mane olan eyni yolun iki yolçusu” sərlövhəli məqaləsində yazıb.

Müəllif Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının aparıldığı və şübhəsiz ki, ümidverici nəticələrin əldə edildiyi indiki dövrdə Niderland parlamentində belə bir sənədin ortaya çıxmasını siyasi ehtiyatsızlığın və məsuliyyətsizliyin bariz nümunəsi adlandırıb. Təəssüf hissi ilə bildirilib ki, Azərbaycan torpaqlarının işğal altında qaldığı, bir milyon azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyi 30 ildə Niderland parlamentinin üzvləri bir dəfə də olsun səslərini çıxarmayıblar. Ötən müddət ərzində işğalçıları açıq və ya gizli dəstəkləyən niderlandlı deputatlar bu gün uzun illərdir münaqişədə olan iki dövlət arasında münasibətlərin normallaşması prosesinə xələl gətirən hərəkətləri təqdir edirlər.

Politoloq Ermənistandan və vaxtilə işğal olunmuş Azərbaycan ərazilərindən azərbaycanlıların qovulmasına, eləcə də Azərbaycan mədəni irsinin kütləvi şəkildə məhvinə göz yuman Niderland parlamentinin indi kökündən böhtan xarakterli mövqe nümayiş etdirməsinə diqqət çəkib. İki ölkə arasında münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin müəyyənləşdirilməsi istiqamətində addımlar atıldığı bir vaxtda xarici dövlətlərin zərərli müdaxiləsini yolverilməz adlandırıb.


ISRAEL HAYOM This is where we stand | Home | News | Opinions | Jewish World | Lifestyle | Magazine | In Memoriam

Ad Релокация в Баку Relocation.az Открыть

Blogs hosted on Israel Hayom are contributed by third-party authors. The opinions, facts, links, and any other content included in them are provided by and solely represent the authors, and Israel Hayom does not assume any responsibility for them. Please contact us in case of abuse.

In recent days, the UN General Assembly adopted a resolution calling upon Israel to withdraw from all Palestinian areas within one year and for an arms embargo to be formed against weapons that Israel might use in those areas. It was adopted by a two-thirds majority in a recorded vote of 124 in favor to 14 against, with 43 abstentions. Israel has immediately condemned this biased, slanted UN General Assembly resolution, and rightly so.

Ad Релокация в Баку Relocation.az Открыть

The Israeli Foreign Ministry declared that the UN General Assembly resolution represented "cynical international politics" that would encourage terrorism and harm the chances for peace. The resolution, the ministry said in a statement posted to X, strengthens Hamas and "the Iranian terrorist state that stands behind it," while sending a message that "terrorism pays." It also makes a hostage deal less likely, the ministry argued, referring to efforts via international mediators to reach a ceasefire in exchange for the release of captives.

Sadly, the UN General Assembly is not the only one to have a one-sided approach to conflicts in the world. The Netherlands Parliament set out a program that includes an International Security Chapter, which, while mentioning the escalated conflicts, labels the liberation of Azerbaijani territories as the "takeover of Nagorno-Karabakh." The infamous resolution also accuses Azerbaijan of engaging in "ethnic cleansing and damage to cultural heritage."

The Azerbaijani Parliament protested this move as a "racist political act." They added: "The emergence of such a document in the parliament of the Netherlands now that peace negotiations with Armenia are afoot and definitely encouraging results are being achieved to this comes as a vivid example of political recklessness and irresponsibility."

Latest articles

Yom Kippur gives us an opportunity to return to the shores of our lives 10-11-2024 09:57

Comprehensive guide for Yom Kippur 2024 10-11-2024 01:30

UNRWA headquarters in Jerusalem to be seized 10-10-2024 17:20



# Dövlətçilik tariximizdə mühüm mərhələ: Qars müqaviləsi

***1921-ci il oktyabrın 13-də Qars müqaviləsi imzalandı. Həmin tarixdən 103 il ötür. Qars müqaviləsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Naxçıvanla bağlı məsələ öz ədalətli həllini tapıb və ərazi-sərhəd problemi həll olunub. Mühüm tarixi-siyasi əhəmiyyətə malik olan Qars müqaviləsi Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir.***

Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu müqaviləyə qədər olan tarixi dövrə nəzər salsaq görərik ki, XX əsrin 1918-20-ci illərində Azərbaycanda və onun Naxçıvan bölgəsində vəziyyət çox mürəkkəb xarekter almışdır. Mövcud vəziyyətdə Azərbaycandan lazımi köməyi ala bilməyən Naxçıvanın təkləndiyini görən azğın erməni daşnakları hərbi və siyasi yolla qədim diyarı işğal etmək istəyirdilər. Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvana hücumlar edir, şəhər və kəndləri dağıdırdılar. Ağlasığmaz vəhşiliklər və qırğınlar törədən erməni daşnakları Naxçıvan bölgəsində azərbaycanlıların inadlı müqavimətinə rast gəlmişdilər. Tarixdən bizə aydındır ki, 1918-1920-ci illərdə ermənilər Naxçıvanda soyqırımlar törədib, lakin əhalini tabe edə bilməmişdilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilədə isə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur Ermənistana güzəşt edilmişdi.

Tarixi dövrə istinadən qeyd edək ki, 1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradılıb. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış edib. Rusiyanın diktəsi ilə yazılmış bəyanat iki sovet respublikası arasında ərazi mübahisələrinin Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Buna görə də həmin bəyanat Naxçıvan və Zəngəzurun müsəlman əhalisinin haqlı narazılığına səbəb olmuş, eləcə də bu bəyanat Türkiyə nümayəndələri tərəfindən də etirazla qarşılanmışdır.

## 20 MADDƏ VƏ 3 ƏLAVƏDƏN İBARƏT MÜQAVİLƏ

Türkiyə və üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda imzalanan müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilədə Azərbaycanın ərazi bütövlüyü təmin olunmuş, qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr rədd edildi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit edilmişdi. Naxçıvanın statusu və tabeçiliyi məsələsi beynəlxalq müqavilələrlə tam şəkildə həll edilib.

Bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilib və həmin il sentyabrın 11-dən qüvvəyə minib. Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərir, Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin bir qismi qanunsuz olaraq Ermənistana verilib. Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin, təqribən, 15 faizi keçən əsrin müxtəlif dönəmlərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilib. Qars müqaviləsində muxtariyyətin əsası qoyulub, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılıb, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilib. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb.

Ümummilli Lider Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək belə deyirdi: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".

1991-ci il yanvarın 11-də Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırıb. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaradıb. Naxçıvanın tarixində mühüm və əhəmiyyətli məsələ olan Qars müqaviləsi XX əsrdə Naxçıvan ərazi bütövlüyünün təmin olunmasında mühüm rol oynamışdır.

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDAKI MÜNASİBƏTLƏRƏ BÖYÜK TÖHFƏ

100 il sonra - 1921-ci il 13 oktyabrda imzalanmış Qars müqaviləsindən sonra Türkiyənin Azərbaycana dəstəyini ən güclü formada nümayiş etdirən rəsmi sənəd Şuşa Bəyannaməsi imzalandı. 30 ilə yaxın erməni işğalçılarının tapdağı altında əzilən Şuşa dörd il əvvəl noyabrın 8-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və Milli Ordumuzun rəşadəti ilə böyük zəfərə, şanlı qələbəyə imza atdı. 2021-ci ilin iyunun 15-də isə Şuşa Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalandığı tarixi məkana çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Tarixi Qars müqaviləsi yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyanamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir".




İki dost və qardaş ölkə arasında imzalanmış bu sənəd Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən dünyaya bir mesaj oldu. Bu günə qədər iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq imzalanmış Bəyannamə Azərbaycan və Türkiyə arasındakı münasibətlərə böyük töhfədir. Şuşa Bəyannaməsi regiondakı yeni reallıqlara, inkişafa, sülhün tam təminatına böyük təkandır. Qars müqaviləsinə istinad edilən Bəyannamə öz formatına görə ondan daha əhatəli sənəddir. Bu sənəddə Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi, iqtisadiyyat, təhsil, müasir texnologiyalar üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi, Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi, iki ölkənin silahlı qüvvələrinin fəaliyyət qabiliyyətinin birlikdə artırılması və digər tədbirlər əksini tapıb.

## QARS MÜQAVİLƏSİ QƏDƏR TARİXİ ƏHƏMİYYƏTLİ ŞUŞA BƏYANNAMƏSİ

Şuşa Bəyannaməsi beynəlxalq hüququn prinsip və normalarına, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsi üçün mühüm rol oynayacaq. Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsipləri öz əksini tapıb. Sənəddə qeyd edilir ki, tərəflərdən hər hansı birinin ərazi bütövlüyünə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edilərsə, onun aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçiriləcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstəriləcək. Əlbəttə ki, Şuşa Bəyannaməsi Qars müqaviləsi qədər tarixi əhəmiyyətə malikdir. Dövlətlərarası əməkdaşlığın daha da möhkəmlənməsində mühüm rola malikdir. İki ölkə, iki xalq xoş günlərin sevincini birgə bayram etdiyi kimi, ən çətin məqamlarda da bir-birilərinə arxa, dayaq durmağı bacarır. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi illər ərzində həmişə Azərbaycana dəstək verirdi. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan müstəqil siyasət yürüdə bilən ölkədir. Dövlət siyasətinin də mütləq prioritetləri Azərbaycan xalqının və dövlətinin milli maraqlarının müdafiə olunması, eyni zamanda ölkəmizin müstəqil siyasət aparmasıdır.

Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə dövlətlərarası gələcək iş birliyinin istiqamətini göstərir. Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır.

Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Media islahatları Azərbaycan mətbuatının yeni inkişaf mərhələsinə qədəm qoymasına təkan verib"

***Media islahatları zəngin ənənələri olan Azərbaycan mətbuatının simasını müasirləşdirərək onun yeni inkişaf mərhələsinə qədəm qoymasına təkan verib, ictimai rəydə jurnalistin nüfuzunun artırılması yönündə ciddi nəticələrə səbəb olub və ilk dəfə olaraq cəmiyyətin media savadlılığının yüksəldilməsi kimi strateji kurs həyata keçirərək, sistemli, konseptual yanaşma sərgiləyib.***



SİA xəbər verir ki, bu sözləri Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov oktyabrın 11-də Bakı Biznes Mərkəzində "Müasir mediada yeni trendlər: informasiya təhlükəsizliyi və peşəkarlıq meyarları" mövzusunda keçirilən konfransda çıxışı zamanı səsləndirib.

Ə.İsmayılov bildirib ki, dünya jurnalistlərinin beyin mərkəzi kimi formalaşmış Şuşa Qlobal Media Forumlarında Prezident İlham Əliyevin şəxsən iştirak etməsi, media nümayəndələrinin çoxsaylı suallarının cavablandırılması dövlətimizin haqq səsinin dünyaya çatdırılması baxımından əlamətdar hadisə olmaqla yanaşı, eyni zamanda, başlıca vəzifəsi cəmiyyəti obyektiv və qərəzsiz informasiya ilə təmin etmək olan mediaya diqqət və qayğının müstəsna təzahürüdür.

"Prezident İlham Əliyev öz çıxışlarında dövlətçilik tariximizdə yeni dövrün başlandığını dəfələrlə bildirərək xüsusi vurğulayıb ki, güclü Azərbaycan həmişə bizim hədəfimiz olub. Dövlətimizin başçısı növbəti illərdə dövlətin qarşısında duran əsas vəzifələrdən biri kimi Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsini ön planda qeyd etməklə yanaşı, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilərək iqtisadi inkişafın yeni bir dayaq nöqtəsi olacağını vurğulayır. Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışı zamanı dövlətin inkişafının yeni mərhələsində daim diqqətdə saxlayacağı istiqamətlər çərçivəsində vətəndaş həmrəyliyini, xalq-iqtidar birliyini və azərbaycançılıq ideologiyasının perspektivlərini nəzərdə tutaraq xalqımızın həmrəyliyini uğurlarımızın əsası kimi göstərib. Hesab edirik ki, dövlətimizin başçısının səsləndirdiyi fikirlər cəmiyyəti ictimai məzmunlu informasiya ilə təmin etmək kimi vacib funksiya yerinə yetirən medianın fəaliyyətində başlıca prioritet və istinad mənbəyidir. Bu baxımdan əminik ki, bugünkü konfransda səsləndiriləcək fikirlər də öz ictimai məzmun və əhəmiyyətinə görə medianın peşəkar fəaliyyətinə öz əhəmiyyətli töhfəsini verəcək", - deyə Əhməd İsmayılov əlavə edib.

# Türk ekspert: "Azərbaycan müstəqil siyasət yürütdüyü üçün ABŞ-ın riyakarlığı ilə üzləşib"




Azərbaycanın müstəqil siyasət yürüdərək torpaqlarını işğaldan qurtararaq ərazi bütövlüyü və suverenliyini bərpa etməsi ABŞ və digər Qərb dövlətləri tərəfindən heç də xoş qarşılanmadı.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin CGTN media qurumunun siyasi şərhçisi Yakub Aslan deyib. O bildirib ki, Amerika Yaxın Şərqdə müstəqil siyasət aparan ölkələrə qarşı olduqca sərt mövqe tutub. Regionu hegemonluğu altında saxlayaraq buradakı ölkələrin sərvətini ələ keçirmək, oradakı hakimiyyətləri əlinin altına alaraq geosiyasi mübarizəsində istifadə etmək istəyən ABŞ heç bir dövlətin milli maraqlarını nəzərə almır. İraqda, Suriyada, Liviyada, Tunisdə zorakı yollarla dövlət çevrilişləri həyata keçirən ABŞ həmin dövlətləri bombalayaraq dağıtdı və yüz milyonlarla insanın ölümünə səbəb oldu. Bu dövlətlər müstəqil siyasət apardıqları, ABŞ-ın maraqlarını təmin etmədikləri üçün dağıdıldı. Halbuki onların heç biri ABŞ üçün real təhlükə törətmirdi. Onlar Amerikadan məsafə, ideoloji, mentalitet və digər parametrlərə görə çox uzaqda idilər.

Rəsmi Vaşinqton Türkiyəyə qarşı da müəyyən sanksiyalar qəbul edib və Ankaraya təzyiq göstərir. ABŞ Türkiyənin milli maraqlarından deyil, rəsmi Vaşinqtonun maraqlarından çıxış etməsini istəyir. Türkiyə illərlə Avropa İttifaqına (Aİ) üzv olmağa çalışsa da, buna imkan verilmir. ABŞ-ın Avropadakı müttəfiqləri müxtəlif bəhanələrlə Türkiyəni "qapı ağzında" saxlayırlar. Halbuki həm iqtisadi, həm siyasi, həm də demokratik inkişaf baxımından Türkiyədən dəfələrlə geridə qalan dövlətlər Aİ-yə qəbul olunub.

Siyasi ekspert bildirib ki, Azərbaycan müstəqil siyasət apardığı üçün ABŞ-ın riyakarlığı ilə üzləşib. Son 30 il ərzində Ermənistanı ara-sıra yada salan ABŞ Azərbaycanın Qarabağı azad etməsindən sonra İrəvana hərbi-siyasi yardımlarını ikiqat artırıb. ABŞ-ın maliyyə dəstəyi ilə hakimiyyətə gələn baş nazir Nikol Paşinyan rəsmi Vaşinqtonun təlimatları ilə addım atmağa məcburdur. ABŞ Qafqaz respublikalarını siyasi oyunlara cəlb etmək üçün Ermənistanı mərkəz seçib. ABŞ-ın hərbi mütəxəssislərinin Ermənistan ordusunda yüksək vəzifələr tutmaları, silah-sursatla təminat onu deməyə əsas verir ki, rəsmi Vaşinqton regionda sülhün və sabitliyin bərpasında maraqlı deyil.

Yakub Aslan qeyd edib ki, ABŞ bütün dövlətlərə "insan hüquqlarının müdafiəsi", "demokratiya", "fikir azadlığı" və bu kimi digər siyasi anlayışlardan sui-istifadə edərək müdaxilə edir. Bu, təsadüfi deyil. Hər hansı bir dövlətə müdaxilə etmək istəyən ABŞ qeyri-hökumət təşkilatları (QHT) tərəfindən hazırlanmış siyasi texnologiyanı işə salır. Konqresdən pul alan QHT-lər əvvəlcə medianı ələ keçirir və geniş təbliğat kampaniyasına başlayırlar. İnsanlara dəbdəbəli həyat vəd edilir. Daha sonra ələ aldıqları mətbuat orqanları, sosial şəbəkə istifadəçiləri və internet resursları vasitəsilə kütləvi aksiyalar təşkil olunur. Daha sonra isə dövlət çevrilişi həyata keçirilir və hakimiyyətə guya xalqın istəyi ilə qərbyönümlü siyasətçi gətirilir. ABŞ bu işləri QHT vasitəsilə həyata keçirərək özünü təmiz saxlamağa cəhd edir. Amerikanın İraqa, Suriyaya, Liviyaya gətirdiyi "demokratiya" və "dəbdəbəli həyat" tərzi dünya ictimaiyyətinin gözünün qarşısındadır. 1990-cı illərdən başlayaraq ABŞ-ın Yaxın Şərq ölkələrinə müdaxiləsinin nəticəsi ondan ibarətdir ki, 30 il ötməsinə baxmayaraq, bu dövlətlər hələ də normal həyata qayıda bilməyib.

"COP29-u da siyasiləşdirən Amerika qlobal xarakter daşıyan ekoloji problemlərə barmaqarası baxır. Rəsmi Vaşinqtonu yalnız özünün korporativ maraqları düşündürür. O, belə bir mötəbər tədbirin Bakıda keçirilməsinin nə demək olduğunu yaxşı bilir və ona görə də şantaja əl atır. COP29 qlobal xarakter daşıyan ekoloji problemlərin həllinin tapılması üçün vacib tədbirdir və bu işdə maraqlı olan dövlətlər konfransda iştirak edib ondan faydalanacaqlar", - deyə siyasi şərhçi vurğulayıb.



Mətanət Məmmədova

## Təklif edirəm ki, tüpürənlər də cərimələnsin!

***Dünən Milli Məclisdə cərimələrin artırılmasının təsdiq olunması bir vətəndaş kimi ürəyimcə oldu. Xüsusilə də siqaret kötükləri və məişət tullantıları ilə bağlı cərimələr.***

Bu, bir faktdır ki, bəzən cəmiyyətdə elə hallarla qarşılaşmaq olur ki, yüksək məbləğdə cərimə tətbiqi ilə onu qısa zaman kəsiyində aradan qaldırmaq olur. Ya mədəni olub çəkdiyin siqaretin kötüyünü yerə atmayacaqsan, ya da mədəniyyətsizlik nümayiş etdirib yüksək məbləğdə cərimə ödəyəcəksən. Və yaxud da ya mədəni olub küçənin ortasında yediyin yeməyin kağızını, içdiyin suyun qabını hara gəldi atmayacaq, məişət tullantısı qutusu axtaracaq, ya da onları yerə atıb cərimə ödəməli olacaqsan.

İllərdir, mətbuat nümayəndəsi olaraq daim bu məsələlərin hər ikisini gündəmdə saxlayıb, ciddi iradlarla çıxış etmişəm. Harada gəldi siqaret çəkib tüstüsünü insanlara verənlər, üstəgəl onun kötüyünü də yerə atıb natəmizlik yaradanda, bu mənzərə onu seyr edənlərin hər biri üçün ürəkbulandırıcı olur. Hələ maşınlardan yollara səpələnən siqaret kötüklərini demirəm. Dayanacaqlarda ağacların dibinə, parklarda oturacaqların yan-yörəsinə atılanları, küçədə getdiyin yerdə siqareti bitirib kötüyünü qarşına atanları demirəm. Yəni, tək-tük adam tapılar ki, siqaret kötüyünü atmaq üçün tullantı yeri axtarsın. Bəzi insanlarda uzun illərdən bəri belə bir təəssürat formalaşıb ki, siqaret kötüyü məhz yerə atılmalıdır. Bunun cəriməsi isə 50 manat olub. Görünür, bu cəriməyə cəlb olunanların sayı az olduğundan kötükləri yerə atmaq da adiləşib.

Dəfələrlə su butulkasının guppultu ilə yerə çırpanlarla, peçenye, dondurma kağızlarını, hələ üstəlik bunların yığıldığı sellofan torbaları gözümüz qarşısında küçənin ortasına atanlarla rastlaşmışıq. Gəl, onlara bir kəlmə söz de, gör sənə necə mədəniyyət dərsi verəcək. Veriblər də. "Yaxşı edirəm, sənə nə" deyənlər də dəfələrlə olub, sadəcə göz süzdürənlər də.

Belələrinə üz tutub deyirəm, buyurun, cərimələr sizi gözləyir. Məişət tullantılarının kənar yerlərə atılmasına görə 300 manatdan 5000 manatadək cərimə tətbiq olunacaq. Yaxşı olar ki, siqaret çəkib kötüyünü küçəyə atmağa alışanlar cibinə yaxşı pul qoyub evdən çıxsın. Bunu edə bilməsə, yəni, çəkdiyi siqareti zorla alırsa, onda gərəkdir ki, özünü bir qədər mədəniyyətə kökləsin. Siqareti almaqda çətinliyi olmayanlar, sürdükləri bahalı maşınlardan kötükləri xüsusi bir ədа ilə bayıra tullayanlar üçün də yeni məbləği vermək asan olmayacaq. Çünki 300 manat heç də az pul deyil. Təbii ki, dəqiqəbaşı siqaret çəkənlərin qarşısında. Yox, əgər pul ciblərini yandırırsa, onlara ağırlıq edirsə, atsınlar kötükləri yerə, versinlər 300 manat cərimə.

Hələ cərimələrin bu qədər artırılmasından utanmazcasına giley edənlər də var. Fikirləşmirlər ki, tullantını atmayaq, qaydaları pozmayaq, cərimə də verməyək. Etiraz edirlər ki, nə üçün cərimələr bu məbləğə qaldırılıb. Çünki özlərinin düzələcəyinə əmin deyillər.

Düşünürəm ki, iyrənc tüpürcəklə qarşılaşmayan insan yoxdur. Səhər-axşam adamın yediyini burnundan gətirən, mədəniyyətsizliyin ən böyük göstəricisi olan tüpürcək də cərimələr siyahısına daxil olunmalıdır. Hələ bunu görmək bir yana, yanından ötərkən içini var gücü ilə artlayıb qadın, kişi bilmədən tüpürən mərifətsizlər də var.

Vallah, bilmirsən sənə "başıaşağı ol" tövsiyəsini edən valideynlərə nə deyəsən. Deyəsən ki, kişilərin iyrənc tüpürcəyini görmək üçünmü belə tövsiyə edirdiniz?

Təklif edirəm ki, tüpürməyə görə də cərimə tətbiq olunsun. Bu, bütün cərimələrdən vacibdir. Və bu cərimənin məbləği bütün cərimələrdən yüksək olsun. Bəlkə belə olarsa, tüpürməyə meylli insanlarda mədəniyyətə də meyl yaranar.

# 44 günlük hərb tarixinin zəfər salnaməsi

## Vətən Müharibəsində əldə olunan şanlı qələbəmiz tarixi kitablarda, dərsliklərdə əks olunacaq



***Bu günlər 44 günlük Vətən Müharibəsinin başlanması ilə Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuzun 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edildiyi tarixi günlərdir. Bu günləri Azərbaycan dövləti durduqca xalqımız daim yad edəcək, böyük fəxarət hissi ilə anacaq. Sentyabrın 27-nə qədər erməni faşizmi və onların arxasında dayanan separatçı qüvvələr BMT qətnamələrinə, nüfuzlu beynəlxalq təşkilatların çağırışına əməl etmir və işğal etdikləri Azərbaycan torpaqlarını azad etmək istəmirdilər.***

Əksinə, daha böyük həyasızlıqla işğala don geyindirməyə, separatizmin genişləndirilməsinə çalışırdılar. Uşaq qatilləri Koçaryan və Sarkisyandan sonra hakimiyyətə gələn Nikol Paşinyan müxtəlif sərsəm açıqlamaları, bəyanatları və hərəkətləri ilə bölgədə müharibənin qaçılmaz olmasına işarələr verirdi. Paşinyanın "Qarabağ - Ermənistandır, nöqtə", - deyə sərsəmləməsi, artıq danışıqların mümkünsüzlüyünü ortaya qoyurdu. Bundan öncə, yeni 2019-cu ilin martında Ermənistanın müdafiə naziri David Tonoyan ABŞ-a səfəri zamanı erməni diasporu ilə görüşündə Ermənistanın "səngər müdafiəsi" strategiyasından "aktiv əngəlləmə" strategiyasına keçdiyini bəyan etmişdi. "Hücum imkanlarını genişləndirərək" ifadəsini işlədən Ermənistan müdafiə naziri bəhs etdiyi strategiyanı "yeni ərazilər uğrunda yeni müharibə" adlandırmışdı. Bununla da Ermənistanın hakim rejimi kompromis üçün siyasi müstəvini tamamilə bağlamışdı. Sonrakı günlərdə Ermənistanın Azərbaycanla sərhəd ərazilərində ardıcıl silahlı təxribatları vəziyyətin son dərəcə kritik xarakter almasına təkan vermiş oldu. Həmin ilin iyulun 12-də Ermənistanın terrorçu dəstələri artilleriya və iriçaplı silahların köməyi ilə Tovuz rayonunun Ağdam kəndi istiqamətində Azərbaycan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədindəki mövqelərinə hücuma keçdilər. Sözügedən hücum nəticəsində Azərbaycanın 11 hərbçisi həlak oldu, bir neçəsi yaralandı, həmçinin dinc sakinlər həyatlarını itirdilər, mülki obyektlərə, kəndlilərin evlərinə və xəstəxana binasına ciddi zərər yetirildi. Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirməklə onu geri çəkilməyə məcbur etdi. Hücum üçün məhz Tovuzun istiqamət seçilməsinin səbəbi o idi ki, Ermənistanla dövlət sərhədi aktiv hərbi münaqişə zonası hesab olunmadığından, orada Azərbaycan hərbi qüvvələrinin əsas hissələri cəmləşməyib. Eyni zamanda, düşmən müharibəni Qarabağdan Ermənistan ərazilərinə keçirməklə özünün də iştirakçısı olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını bölgəyə gətirmək və onun hərbi, siyasi imkanlarından bəhrələnmək istəyi idi. Digər tərəfdən həmin ərazilərdə Azərbaycanın enerji və nəqliyyat infrastrukturu yerləşirdi.

### Erməni terror maşını məhv edildi

Dəfələrlə Ermənistan hərbi xuntası Azərbaycanın neft, qaz infrastrukturunu hədəfə alacağını bəyan etmişdi. Hətta dəfələrlə, o cümlədən 2012-ci ilin 1-13 oktyabr tarixləri arasında Ermənistan silahlı qruplaşması Fransa və digər ölkələrin hərbi rəhbərliyinin iştirakı və planı əsasında "düşmənin neft insfrastrukturuna" hücum adlı təlimlər keçirmişdir. Düşmən iyulun 12-də törətdiyi təxribatdan ağır dərs alsa da, sülh danışıqlarına gəlmək, işğal edilən Azərbaycan torpaqlarını boşaltmaq fikrindən uzaq oldu. Sentyabrın 4-də Qarabağdakı terrorçu dəstələrin başçısı Araik Arutyunyan Azərbaycanla -Ermənistan arasında işğalın aradan qaldırılması istiqamətində aparılan danışıqları tanımadıqlarını bildirdi: "Gəlin, realist olaq və danışıqlar mövzusunu müzakirə etmək əvəzinə müharibəyə hazırlaşaq. Heç bir danışıq olmayacaq, mən bunu görmürəm". Bu cür separatçı fikirləri ilə Artunyan nümayiş etdirirdi ki, separatçı rejim "Madrid prinsipləri" - münaqişənin tənzimlənməsi məqsədilə keçmiş ATƏT-in Minsk qrupu tərəfindən Azərbaycan və Ermənistana təklif olunan əsas paketi tanımırlar və silahlı təxribatlarından əl çəkməyəcəklər. Bununla yanaşı, Azərbaycanın işğal edilən ərazilərində qanunsuz məskunlaşmanın aparılması, Livan ermənilərinin Laçına, Kəlbəcərə köçürülməsi və Qarabağla Ermənistan arasında yol infrastrukturunun inşa edilməsi vəziyyəti daha da ağırlaşdırdı və danışıqlar prosesini dayandırdı. Nəticədə uzun illər sürən danışıqların heç bir nəticə vermədiyi aydın oldu.



### Haqq savaşı qələbəmizlə başa çatdı

Artıq işğal altında olan torpaqlarımızın azad edilməsi üçün Ermənistanın "dəmir yumuruq"la başının əzilməsi vacib amilə çevrildi. Bu məqamda 2020-cnoyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə dediyi fikirləri qeyd etmək yerinə düşərdi: "Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

Beləliklə, 2020-ci ilin sentyabrın 27-də Azərbaycan haqq savaşına başlamalı oldu. 44 günlük müharibə ilə Ermənistanın 30 ilə yaxındır ki, qurduğu mühəndis-istekam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 5 milyard ABŞ dolları olan hərbi texnika qənimət olaraq götürüldü. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir. Sübut etdi ki, Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşub. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev bildirdirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi» söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir: "Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!"

### Əgər kimsə qanunazidd hər hansı bir addım atarsa, onların da aqibəti separatçılar kimi olacaq

Haqqımız olan qələbə təntənəli şəkildə qeyd olunmalı idi və oldu da. Noyabrın 10-da dostları sevindirib, düşmənləri xar edən qələbə paradı keçirildi. Bu parad həm də işğal altında olmuş topaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. "Azadlıq" meydanında keçirilən Qələbə Paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Parada, həmçinin, Vətən Müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Qürurverici məqamlardan biri də ondan ibarət idi ki, müharibənin ilk günündən ürəyi, qəlbi Qarabağla döyünən qardaş Türkiyənin hakimiyyəti, xüsusilə də Prezident Rəcəb Tayyib Ərdoğan Qələbə Pardında da Azərbaycanla birlikdə oldu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qələbə Paradında Zəngəzurun, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirib: "Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

Düşmənə vurulan ağır, sarsıdıcı zərbə Qarabağda kök salan separatçıların təmizlənməsi ilə davam etdirildi. 2023-cü il sentyabrın 19 başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə separatçıların bütün hərbi texnikası, silah-sursatı və canlı qüvvəsi məhv edildi. Terrorçulara rəhbərlik edən Arayik, Vardanyan, Saakyan, Qukasyan və digərləri həbs edilərək istintaq orqanlarına təhvil verildilər. Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin mətbuata verdiyi açıqlamaya görə, artıq separatçıların istintaqı başa çatdırılıb və yaxın günlərdə onların işinə məhkəmədə baxılacaq. Əminik ki, minlərlə insanın ölümünə qərar verən, yüz minlərlə insanın evəşiyindən didərgin düşməsinə, yurd -yuvasının dağılmasına, xarabazarlığa çevrilməsinə səbəbkar olan terrorçu başçılar məhkəmənin qərarı ilə layiq olduqları cəzanı alacaq. Bu, ədalətin bərpası, Azərbaycan dövlətinin qüdrətinin göstəricisi olacaq. Bununla həm də bölücülüyə, separatizmə can atanlara bir dərs olacaq. Göstəriləcək ki, əgər kimsə qanunazidd hər hansı bir addım atarsa, onların da aqibəti separatçılar kimi olacaq.

**İLHAM ƏLİYEV**

# III MDB Oyunlarının Azərbaycanda keçirilməsi qərarı ölkəmizin yüksək nüfuzunun göstəricisidir

***Azərbaycan Respublikası MDB çərçivəsində fəal siyasət həyata keçirir. Ölkəmiz təşkilatın iştirakçı dövlətləri ilə əməkdaşlığın ikitərəfli əsasda davam etdirilməsinə də üstünlük verir.***

Bununla yanaşı, Azərbaycan MDB çərçivəsində siyasi, iqtisadi və humanitar sahələrdə ölkəmiz üçün maraq kəsb edən məsələlər üzrə əməkdaşlığını davam etdirilərək, bu təşkilatın iştirakçı dövlətlər arasında dialoq müstəvisi kimi önəmini dəyərləndirir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, ötən dövrdə MDB özünü müstəqil dövlətlərin səmərəli əməkdaşlıq platforması kimi təsdiqləyib. Quruma daxil olan dövlətlər bir sıra istiqamətlər üzrə öz fəaliyyətlərini uzlaşdırıblar ki, bu da regional təhlükəsizliyin təmin olunmasına və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın dərinləşməsinə öz müsbət təsirini göstərib. O cümlədən terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri MDB-yə daxil olan dövlətlərin qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərini təşkil edib. Ötən dövrdə birliyin hüquq-müqavilə bazası möhkəmlənib.

S.Fətəliyevanın sözlərinə görə, oktyabrın 8-də Prezident İlham Əliyevin Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı və çıxışı dövlətimizin bu beynəlxalq platformaya verdiyi önəmin göstəricisidir. Təqdirəlayiq haldır ki, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Prezident İlham Əliyev bununla bağlı çıxışında bildirib: “Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb”.



Milli Məclisin deputatı qeyd edib ki, MDB dövlətləri arasında əməkdaşlığın mühüm bir istiqamətini humanitar-mədəni sahə təşkil edir. Bütün bunlar isə xalqları bir-birlərinə daha yaxın edir və onları zənginləşdirir. Ötən dövrdə MDB çərçivəsində humanitar sahədə əməkdaşlığın möhkəmlənməsini hədəfləyən, gənclər siyasətinə aid, eləcə də təhsil, səhiyyə, mədəniyyət, idman və turizm sahələrində uğurlu layihələrin reallaşdırılması müsbət haldır. Bu baxımdan, növbəti il Azərbaycanda III MDB Oyunlarının keçirilməsi haqqında qərarın verilməsi də təşkilat çərçivəsində ölkəmizin yüksək nüfuzunun göstəricisidir. Belə ki, 2025-ci ildə Gəncə şəhəri idman paytaxtına çevriləcək.

“MDB dövlət başçılarının Zirvə görüşündə COP29-un ölkəmizdə keçirilməsinə bir daha dəstək ifadə olunub. Eləcə də sammitdə 1941-1945-ci illər müharibəsində Qələbənin 80 illiyi ilə bağlı MDB xalqlarına və dünya ictimaiyyətinə birgə müraciət qəbul olunub. Prezident İlham Əliyev çıxışında azərbaycanlıların bu Qələbədə xüsusi rol oynadığını vurğulayıb. Belə ki, həmin dövrdə Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar qələbənin əldə olunmasında müstəsna əhəmiyyət kəsb edib”, - deyə deputat vurğulayıb.

# “Qarabağın və Şərqi Zəngəzurun inkişafı diqqət mərkəzindədir”

“Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, bərpa olunur. İşğaldan azad olunmuş ərazilərdə böyük işlər həyata keçirilir, regionun abadlaşdırılması üçün vacib olan tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidentinin dediyi kimi Qarabağ torpaqları artıq cənnətə çevrilməkdədir. Görülən real işlər bu gün özünün aydın əksini tapır. Həqiqətən də işğaldan azad olunmuş ərazilər döyüş meydanını xatırladırdı. Burada bir neçə il öncə düşmənlə qətiyyətli mübarizə aparılırdısa, bu gün dağıdılan kəndlərin bərpası uğrunda mübarizə gedir. Bu işlərin təşkilatçısı, istiqamətvericisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Ölkə rəhbəri Milli Məclisin VII çağırış ilk iclasında bir daha bildirdi ki, qarşımızda duran ən vacib məsələlərdən biri işğaldan azad olunmuş əraziləri tez bir zamanda bərpa etmək və sakinləri öz ata-baba yurdlarına köçürməkdir. Bu gün büdcədən 19 milyard manat vəsait sərf olunmuş və bundan sonra da bu istiqamətdə əsaslı tədbirlər görüləcək”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Rzayev deyib. Deputat bildirib ki, artıq Zəngilana köç başlayıb: “Keçdiyimiz günlərdə Cəbrayıl da öz sakinlərini qəbul etdi və Cəbrayılın işğaldan azad olunduğu gündə ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin torpaqları ziyarət etməyi, həmin ərazilərdə işlərin gedişi ilə tanış olmağı, yeni bina və müəssisələrin təməlini qoymağı özlərinə borc hesab etdilər. Bunun üçün Azərbaycan xalqı öz liderinə böyük təşəkkürünü bildirir.




Cəbrayılda çox vacib, əhəmiyyətli müəssisələrin təməli qoyuldu, şəhərdə tam orta məktəb istifadəyə verildi, Cəbrayıl rayonunda Araz Vadisi İqtisadi zonası sənaye parkında yeni müəssisələrin təməli qoyuldu. Digər görülən bütün işlərlə də tanış olundu və lazımi tapşırıqlar verildi.

Zəngilan bu gün müasir şəhərə çevrilməkdədir. Burada əvvəllər bir çox müəssisələr, yaşayış evləri, binalar, məktəb və digər müəssisələr istifadəyə verilib və səfər zamanı da ölkə rəhbəri Zəngilan rayonunda Sarıqışlaq su elektrik stansiyasının açılışında iştirak etdi, Zəngilan elektrik şəbəkəsinin rəqəmsal idarəetmə mərkəzi istifadəyə verildi. Eləcə də Zəngilan şəhərində V yaşayış kompleksinin təməli qoyuldu. Hər iki şəhərdə görülən işlər qürur doğurur. Bu insanların yaşayışı, rahatlığının təmin olunması, iqtisadi inkişaf, həmin regionlarda kənd təsərrüfatının, turizmin inkişafı baxımından çox vacibdir. Cənab Prezident daim işlərin gedişi ilə ciddi maraqlanır və onun ildə bir neçə dəfə regionlara səfər etməsi, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması ilə tanış olması göstərir ki, Qarabağın və Şərqi Zəngəzurun inkişafı diqqət mərkəzindədir və bu diqqət günü-gündən artırılır”.



MÜNASİBƏT

***Səbinə Hüseynli***



**Elçin Bayramlı**

# Təhsilin dərdi var, təhsil xəstədir...

***Son vaxtlar orta məktəblərdə baş verən hadisələr haqda mediada və sosial şəbəkələrdə yayılan videolar ciddi ictimai müzakirələrə səbəb olub. Məktəblərdə şagird-müəllim münasibətləri ən biabırçı formalaradək gəlib çatıb, şagirdlərin bir-birini amansızcasına döymələrindən tutmuş, müəllimə qarşı ən tərbiyəsiz hərəkətlər etməsi cəmiyyət və dövlət üçün ciddi siqnaldır. Vəziyyətin bu həddə gəlib çıxmasına müxtəlif səbəblər göstərilir. Lakin onların çoxu məsələyə üzdən baxmaqdır və problemin köklü səbəblərini və həll yollarını göstərmir. Bu yazıda əsil səbəbləri və çıxış yolunu göstərməyə çalışacağıq.***

Bəri başdan qeyd edim ki, problem nə müəllimlərdə, nə də şagirdlərdədir. Problemin kökündə Təhsil Nazirliyi və valideynlər dayanır. Biri təhsil verə bilmir, o biri tərbiyə. Son dövrlərdə təhsil sistemi üzərində tətbiq edilən eksperimentlər, kurrikulum sistemi adı ilə, “şagird yönümlü təhsil proqramı” adı ilə tətbiq olunan bu sistem məktəblərdə tamamilə anarxiya və özbaşınalıq yaradıb.

Məktəbin və müəllimlərin tərbiyə vermək funksiyası əlindən alınıb. Hazırda onlar sadəcə təhsil verməklə məşğul ola bilərlər. Uşaqlar istədikləri hərəkəti edə bilər. Hətta müəllimi döymək halları da baş verib. Bütün bunların qarşılığında müəllim heç nə deməməlidir. Şagirdlərin tərbiyəsiz davranışlarına qarşı müəllim tərəfindən görülən tənbehin sonu isə müəllimin cəzalandırılması, bəzən də onun işini itirməsi ilə nəticələnir. Bir çox şagirdlər isə öz növbəsində bu kimi fürsətlərdən necə lazımdır istifadə edir. Artıq onlar bilirlər ki, müəllim onlara bu hərəkətlərinin qarşılığında heç nə deyə bilməyəcək. Hazırda vəziyyət daha da pisə doğru gedir, uşaqlar aqressivləşir, zombiləşir, köhnə ənənələrə sadiq müəllimlər təhsil sferasından uzaqlaşır.

Digər tərəfdən valideynlər övladlarını tərbiyələndirmək xüsusiyyətini itirgidib. Əksəriyyət “yevropeyski” psixoloqların təbliğatına uyaraq “Uşaqlara tərbiyə vermək lazım deyil, uşaqdır nə istəsə edə bilər” prinsipi ilə uşağı hər şeyin mərkəzinə gətirib. Dünya uşağın ətrafında fırlanır. Uşağın ağzından nə çıxdı o saat yerinə yetirilir, valideynlər və digərləri onun xidmətçisi roluna yiyələnib. Heç bir tənbeh, cəza görməyən uşaqlar tamamilə quduğan, harın, tərbiyəsiz hərəkətlər edirlər.

Onu da bildirim ki, mən də bu hallarla bağlı mediadakı tənqidi çıxışlarımı sosial şəbəkələrdə də paylaşıram. Minlərlə şərh yazılır. Müəllimlər görmədiyimiz daha dəhşətli faktların olduğunu yazırlar. Biz sadəcə işıqlandırılan, yayımlanan hadisələri görürük. Hazırda vəziyyət çox acınacaqlıdır. Uşaqlar öz ailələrində ala bilmədikləri tərbiyəni məktəbdə nümayiş etdirirlər. Bu, valideynlərin mədəniyyət səviyyəsinin uşaqlar tərəfindən nümayişidir.

Bu məsələlər çox dərindir. Qısa desək, bu kimi hallar uzun illər aparılmış “islahatların” və səhv təbliğatın nəticəsidir. Amerika və Avropa fondlarından maliyyələşən bəzi QHT-lərin nümayəndələri, “hüquq müdafiəçiləri” uşaqlara, onların hər cür hüquqlarının olduğunu, onlara heç kimin heç nə deyə bilməyəcəyini aşılayırlar. Onların beyninə “istədiyinizi edə bilərsiniz, müəllim kimdir ki, sizə nəsə desin, valideyniniz belə sizə heç nə edə bilməz” tipli məlumatlar yerləşdirirlər.

Hazırkı vəziyyətdə yaxın gələcəyi təsəvvür etmək o qədər də çətin deyil. Belə biabırçı hallara son qoyulmalıdır. Təhsilin üzərində aparılan eksperimentlər dayandırılmalı, məktəblərin tərbiyə səlahiyyətləri bərpa edilməlidir. Məktəblərlə yanaşı, valideynlər də uşaqlara tərbiyə verməlidir. Bu kimi halların qarşısı alınmazsa, gələcəkdə kriminal ünsürlərin sayı artacaq, cəmiyyətdə mənəvi deqradasiya daha da sürətlənəcək.

Başa düşməliyik ki, biz insan yetişdirməliyik, beyinləri müxtəlif biliklərlə doldurulan zombilər yox. Eyni zamanda, biz tərbiyədən əlavə olaraq, təhsil də verə bilmirik. Orta məktəblərin təhsil göstəriciləri biabırçı həddədir. Hətta 150-200 balla, yəni 5 ballı şkala üzrə 1-2 qiymətlə universitetlərə daxil olma səviyyəsinə qədər enmişik. Savadsız kütlənin ali məktəblərə daxil olunması prosesi getdikcə asanlaşır və sabah bu savadsız adamlar bizi idarə edəcək.

*Azərbaycançılıq termini ictimai elmlər dövriyyəsində yeni yaranan anlayış olsa da, artıq bu mövzuya dair ərsəyə gətirilən məqalələr, monoqrafiyalar, azərbaycançılığın əsaslarının, mahiyyətinin və konseptual tərəflərinin şərh edilməsi bu ideyanın mahiyyətini anlamağa imkan verir. Artıq azərbaycançılığın mahiyyəti hər birimizə bəllidir və bilirik ki, bu ideologiyanın kökündə millətçilik deyil, vətəndaşlıq dəyərləri dayanır. İnsanların şüurunda formalaşan ictimai dəyərlər isə dövlətin, ölkənin inkişafına və güclənməsinə çox böyük müsbət təsir göstərir və məhz buna görə də azərbaycançılıq dövlətin aparıcı ideologiyasına çevrilib.*



# Azərbaycançılıq dövlətin aparıcı ideologiyasına çevrilib

Müstəqilliyin qorunmasına, demokratik inkişafa, hüquqi, sosial dövlətin qurulmasına xidmət edən azərbaycançılıq ideyası xalqımızı birləşdirən ideyadır. Bu baxımdan da azərbaycançılıq ideyası təkcə ölkəmizin sərhədləri daxilində, Azərbaycan ərazisində yaşayanların həmrəyliyi ilə məhdudlaşa bilməz. Azərbaycançılıq ideyası ölkəmizin müstəqilliyini, güclənməsini, qüdrətinin artmasını arzulayan insanları birləşdirən bir dəyər sayılır. Ona görə ki, bu ideologiya milli birliyi, ümumxalq münasibətlərini qorumaq, mövqeyimizi möhkəmləndirmək, təsdiq və inkişaf etdirmək məqsədi daşıyır. Məhz elə buna görə də azərbaycançılıq bizim milli-mənəvi varlığımızın ilkin əlamətlərini, kimliyimizi əks etdirən və milli təfəkkürümüzü birləşdirən dəyərlər sistemi hesab olunur.

"Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar, ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir", deyə Ulu Öndər Heydər Əliyevin Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında bəyan etdikləri əslində, azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi sayılır. Onu da bilirik ki, Ümummilli Lider Heydər Əliyev xarici ölkələrə rəsmi səfərlər etdikdə belə həmin ölkələrdə yaşayan, məskunlaşan azərbaycanlılarla görüşlər keçirər və azərbaycançılıq ideyasının çox vacib bir ideya olduğunu aşılayar, harada yaşamasından və kimliyindən asılı olmayaraq, həmvətənlərimizin birliyini tövsiyyə edərdi. Ulu Öndərin tövsiyyələri də əlbəttə ki, eyni zamanda xarici ölkələrdə yaşayan həmvətənlərimiz tərəfindən də hər zaman rəğbətlə qarşılanıb və buna görə də azərbaycançılıq ideyası hər zaman öz aktuallığını qoruyub. Əlbəttə, məhz bu baxımdan cəsarətlə deyə bilərik ki, Azərbaycançılıq ideyasının məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olması heç də təsadüfi deyil.

Əsrin üçdə birinə, 30 ilə yaxın müddətdə ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin, məhz bütün azərbaycanlıların birliyi ilə reallaşdığının hər birimiz şahidi olduq. Şahidi olduq ki, işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsində təkcə ölkəmizin ərazisində yaşayan azərbaycanlıların deyil, dünyanın bir çox ölkələrində məskunlaşan, yaşayan həmvətənlərimizin həmrəyliyinin, milli birliyinin böyük rolu oldu. Belə bir birliyi isə tarixin bütün zehni və mənəvi təcrübələrini özündə əks etdirən milli ideologiya yaratdı və məhz bu ideologiya azərbaycançılıq ideologiyasıdır. Bir daha əmin olduq ki, azərbaycançılıq coğrafi anlayış deyil, daha çox siyasi anlayışdır və məhz bu səbəbdən də bu ideologiya dövlətin aparıcı ideologiyasına çevrilib.

Vətən sevgisi ilə, torpaqlarımızın bütövlüyü uğrunda birləşən xalqımız, məhz azərbaycançılıq ideologiyasına sadiq qalaraq, Azərbaycan torpaqlarının işğalına son qoydu. Azərbaycançılıq ideyası, vətən sevgisi bizi birləşdirdi, həmrəyliyimizi təmin etdi və düşmən üzərində qələbəmizə ən qısa zamanda nail olduq, Zəfər qazandıq. Şahidi olduq ki, dünyanın harasında yaşamasından asılı olmayaraq, vətən sevgisi ilə ürəyi döyünən hər bir azərbaycanlının birliyi, azərbaycançılıq ideyası milli maraqlarımızın təmin olunmasına xidmət edir. Torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində aparılan mübarizədə hər bir azərbaycanlının öz töhfəsini vermək istəyi və niyyəti qürurverici məqamdır. Bütün dünya azərbaycanlılarının Azərbaycanın haqq səsinə səs verməsi gücümüzə güc qatdı desək, yanılmarıq. Məhz milli birliyimizin, həmrəyliyimizin, azərbaycançılıq ideyasının təbliği bu baxımdan daim diqqət mərkəzindədir və indi hər kəs əvvəlkindən də daha çox əmindir ki, azərbaycançılıq ideyası xalqımızın birliyi, həmrəyliyi üçün ən vacib şərtdir və bu ideologiyanın dövlətin aparıcı ideologiyasına çevrilməsi də bu baxımdan başadüşüləndir.

Əlbəttə ki, xalqımızın birliyi, həmrəyliyi bütün dünya xalqları üçün bir örnək, bir nümunə hesab oluna bilər. Çünki bütün dünya ictimaiyyəti məhz 44 günlük müharibə dönəmində və müharibədən sonrakı dövrdə belə şahidi oldu ki, milli birliyimiz, həmrəyliyimiz sarsılmazdır və azərbaycançılıq ideyası bizim üçün ən başlıca ideyadır. Azərbaycançılıq ideyasının nəyə görə dövlətimizin aparıcı ideologiyası olduğunu da hər kəs başa düşmüş oldu. Başa düşmüş oldu ki, xalqımızın öz rəhbərinə, Ali Baş Komandanına, öz Prezidentinə, cənab İlham Əliyevə inamı və birliyi dünyanın tanınmış, nüfuzlu beynəlxalq təşkilatlarının 30 il ərzində bacarmadığı işin öhdəsindən 44 gün ərzində gəlmək üçün yetərli oldu. Bu baxımdan da Azərbaycançılıq ideyasının nəyə qadir olduğunu, birliyimizin, həmrəyliyimizin gücünü görməmək mümkün də deyil və azərbaycançılıq ideyası ilə ölkə rəhbərimizin ətrafında bir yumruq kimi birləşməklə, böyük tarixi qələbəmizə imza atmağımızda, birlikdə güclü olmağımızda azərbaycançılıq ideyasının nəyə qadir olduğunu qətiyyən unutmaq olmaz.

Unutmaq olmaz ki, mükəmməl qələbəyə məhz, Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin vətənpərvərliyi, qətiyyəti, siyasi iradəsi, təcrübəsi, biliyi, uzaqgörənliyi, eləcə də Azərbaycan Ordusunun rəşadəti ilə yanaşı, xalqımızın birliyi, həmrəyliyi ilə ən qısa zamanda imza atıldı.

Əlbəttə ki, müharibə, savaş döyüş meydanında xalqımızın, ölkəmizin mükəmməl qələbəsi ilə bitsə də, düşmən rüsvayçı məğlubiyyətlə qarşılaşsa da, Ermənistan tərəfi kapitulyasiya, təslimiyyət sənədinə imza atsa da, diplomatik müstəvidə mübarizə hələ də davam etməkdədir və nə vaxta qədər davam edəcəyi, nə vaxt başa çatacağını proqnozlaşdırmaq mümkün deyil. Qətiyyən yaddan çıxarmaq lazım deyil ki, birliyimiz, həmrəyliyimiz bundan sonra bizə daha çox lazımdır və bundan sonra əhəmiyyəti daha böyükdür. Çünki milli maraqlarımızın qorunması, müdafiə edilməsi ən aktual məsələdir və bu məsələdə azərbaycançılıq ideyası əvəzsizdir. Heç şübhəsiz ki, dövlət başçımızın diplomatik görüşlər zamanı hər dəfə bizim milli maraqlarımızdan çıxış etdiyini, azərbaycançılıq ideyasının ön planda olduğunu təkzib etmək mümkün də deyil. Təkzib etmək mümkün deyil ki, Azərbaycançılıq ideyası dövlətin aparıcı ideologiyasına çevrilib.

***İnam Hacıyev***

# Qızları MƏHV ETMƏYƏK!



## Həkimlə müsahibə

***Ali dərəcəli mama-ginekoloq, Respublika Klinik Xəstəxanasının doğum şöbəsinin həkimi Nailə Əzizovanın SİA-ya verdiyi müsahibəsini təqdim edirik:***

**- Azərbaycanda abort sayı hansı səviyyədədir? Hər ay abort etdirmək üçün nə qədər xanım müraciət edir?**

- Əfsuslar olsun ki, xanımlar arzuolunmaz hamiləlikdən qorunmaq metodlarını yaxşı bimədikləri üçün Azərbaycanda abortların sayı yüksəkdir. Faizlə hesablasaq mən deyərdim ki, biz birinci üçlükdəyik.

**- Axı bir ana övladını niyə öldürmək istəsin?**

- Mən deyərdim ki, abort və bir ananın övladını öldürməsi eyni prosesdir. Hətta bunları sinonim adlandırardım. Səbəbi odur ki, arzuolunmayan hamiləlikdən qorunmaq üsulunu bilməyən qadınlarımız hamilə qalır. Ya ailədə maddi sıxıntıları olduğu üçün ikinci övladını dünyaya gətirmək istəmirlər. Əksər hallarda da “Qızdır, istəmirəm” deyərək abort etdirmək istəyirlər. Abortun ən başlıca səbəbi bunlardır.

**- Ən çox aborta niyə müraciət edirdilər? Abort üçün nəyi əsas gətirirlər?**

- Abortun çox nadir hallarda səbəbi inkişaf halları ve genetik qüsurlardır. Bunlar da tibbi göstəriş üzrə abortlardır.

**- Yəni övladın qüsurlu doğulacağı ehtimalı, yoxsa cinsiyyətə görə abort etdirilir?**

- Mən deyərdim ki, hər iki halda aborta müraciət edilir. Azərbaycanda səhiyyə sistemi günü-gündən inkişaf edir. Bu gün müraciət edən xanımlar ən son model cihazlarla ultrasəs müayinədən keçirilir. Bu cihazlar uşaqda olan qüsurları vaxtında aşkar etməyə imkan verir.

Əfsuslar olsun ki, son dövrdə qohum nikahları çox geniş yayılıb. Buna görə də bu müayinələrə tez-tez müraciət edirik. Belə hallarda qüsurlu döllərə daha çox rast gəlinir. Amma etiraf etmək lazımdır ki, abortların faizində cinsiyyətə görə də müraciətlər çox olur. 30 faiz hallarda abort qüsurlu dölə görə etdirilirsə, 70 faiz hallarda döl qız olduğu üçün abort etdirilir.

- Bəs tərəflər arasında nikahın olmaması abort faizində nə qədər rol oynayır?

- Mən də öz təcrübəmdə nikahdan kənar abortlara rast gəlirəm. Amma Azərbaycan demokratik respublika olduğuna və aborta müraciət etmiş hər bir qadın həddi-bülua çatdığına görə abort bir cərrahi prosesdir. Onlar öz rəsmi razılığını verdiyi və 9 həftəsinə qədər könüllü olduğuna görə bu xanımlar abort etdirə bilərlər. Yəni nikahın burada önəmi yoxdur.



**- Abort risklidirmi?**

- Təəssüf ki, qadınlar aborta riskli bir proses kimi baxmırlar. Birincisi abort cərrahi bir prosesdir. Hər bir abort zamanı həmin qadının müxtəlif növ infeksiyaya yoluxma ehtimalı var. Bura qan xəstəlikləri və s. aiddir. Mən hər bir hamiləmə tövsiyə edirəm ki, əgər hamiləlik planlaşdırırsa, stamotoloqdan tutmuş terapevtə qədər müayinədən keçsin. Bütün bunlar həllini tapdıqdan sonra planlı hamiləliyə qərar versin.

**- Neçənci aydan sonra abort etdirmək olmaz? İlk uşağın abort edilməsi qadının yenidən ana olmasını hansı hallarda riskə atır?**

- Ümumiyyətlə 7-9 həftəyə qədər könüllü olaraq uşaq istəməmə faktorunu nəzərə alıb abort etdirmək ambulator şəraitdə mümkündür. 9-12 həftə arasında yenə də könüllü olaraq uşaq istəməmə halları varsa, stasionar şəraitdə hər bir qadın abort oluna bilər. 12 həftədən o yana abort olunma qadağandır. Bu yalnız ana və uşaq tərəfindən risk faktorları varsa, bunlar yazılı surətdə öz əsasını tapırsa, bu zaman həmin qadınlar tibbi göstəriş üzrə erkən və gecikmiş aborta məruz qala bilərlər.

Bu yalnış fikirdir. Çünki indi diaqnostikamız inkişaf edib. Erkən hamiləlik əgər 9 həftəsinə qədər vakum aspirasiya yolu ilə baş verərsə, heç bir fəsad olmur. Fəsad olması üçün tədbirlər görülür. İlk abort çox nadir hallarda sonsuzluğa səbəb ola bilər. Təcrübəmə əsasən deyə bilərəm ki, pasientlərim arasında inkişafdan qalmış və qüsurlu döl olduqda hamiləliyi pozub müalicə etmişəm. Daha sonra bu qadınlar heç bir əngəl olmadan təbii yolda hamilə qalıblar.

**- Uşaqlar arasında minimum neçə il fərq olmalıdır və bunun əsası nəyə dayanır?**

- Ümumiyyətlə elm sübut edib ki, keysəriyyə və təbii yolla olmasından asılı olmayaraq hər bir qadın uşaq dünyaya gətirdikdən sonra həmin orqanizm hamiləlik və doğuş zamanı itirdiyini üç ilə bərpa edir. Ona görə yaxşı olar ki, heç bir problem olmadığı halda hər bir qadın üç ildən bir uşaq dünyaya gətirsin.

**- Birinci uşaqda düşük yaşayan qadın yenidən övlad sahibi olmaq üçün neçə il gözləməlidir? Əgər qadın ilk düşükdən bir neçə ay sonra hamilə qalarsa, uşaqda nə kimi fəsadlar özünü göstərə bilər?**

- İl gözləməli deyil. Əgər birinci hamiləlikdə düşük olubsa, həkimə müraciət etməli, səbəb araşdırılmalı və qan analizləri verilməlidir. Bunun infeksion, endokrin, genetik, nevroloji, vitamin çatmazlığı kimi səbəbləri var. Bunlar həll olunduqdan sonra növbəti hamiləliyə start verilə bilər. Səbəblər aradan götürülməyibsə təkrar düşük yarana və vəziyyət gərginləşə bilər.

**- Bəzi ailələr övladları qız olacaq deyə aborta üz tuturlar. Hətta kişilər var ki, oğulları olmur deyə qadından boşanırlar. Övladın cinsiyyətində qadın, yoxsa kişi genləri rol oynayır?**

- Mən belə hallara yol vermərəm. Bu məsələ ilə bağlı müraciət olunarsa, ər-arvadı qarşıma qoyub onlara izah edirəm ki, kişi “x” qadın “x” birləşəndə qız övladı, kişi “y” qadın “x” ilə birləşəndə oğlan uşağı dünyaya gəlir. Yəni, cinsiyyəti kişi tərəf müəyyən edir. “Y”lər çox yüksək sürətə gedib tez məhv olmağa malikdir. Müəyyən profilaktik tədbirlər görülməlidir ki, oğlan uşağının yaranma ehtimalı artsın. Amerika tədqiqatçıları tərəfindən müəyyən olunan Benetton cədvəli var ki, onu tətbiq edirəm. Həmçinin, deyirəm ki, “Göydə Allah, yerdə qismətiniz”.

Eyni zamanda izah edirəm ki, bütün bu hallarda cinsiyyəti təmin edən tərəf kişidir. Ona görə artıq o vaxt deyil ki, qadınlar günahlandırılsın, boşanılsın, təhqir olunub şiddətə məruz qalsın.

**- Aborta üz tutan vətəndaşlar üçün maarifləndirmə aparılırmı? Yəni bəzi xanımlar var ki, cinsi münasibətdə məlumatsız olurlar, onlara nə kimi tövsiyələr verirsiniz?**

- Mənim müraciətim hər bir vətəndaşadır. Mən abort zamanı onu etməməyi tövsiyə edirəm. Bacardığım qədər onları bu fikirdən daşındırmaq istəyirəm. Əgər 7 həftəsinə qədərdirsə, abort edirəm. Onlara arzuolunmaz hamiləlik haqqında şamlar, prezervativlər, həblər, uşaqlıqdaxili vasitələr, implantlar, hormonal dərmanlar barədə məlumat verirəm. Abortun risk və fəsadları haqqında danışıram ki, bu məsələyə daha həssas yanaşsınlar.

**- Abortlara erkən nikahlar da təsir edir. Gənc qızlarda lap erkən ailə qurmağa səbəb nədir? Bunu “cahil özgüvəni” adlandıra bilərik?**

- Abortlara erkən nigahlar da təsir edir. Bu cahil özgüvənidir və müəyyən regionlarda geniş vüsət alıb. Amma 18 yaşa qədər erkən ailə quranlar artıq dövlətimizin qanunlarını bildiyi üçün həkimlərə müraciət etməyərək gizli iş çevirirlər. Əgər belə hamilə qadınlar doğum edərsə, biz dərhal polisə məlumat veririk. Polis də onlarla bağlı tədbir görüb araşdırma aparır.

**- Təcrübənizə əsasən abort zamanı hansı riskli hallar yaşanıb?**

- Öyünməyi sevmirəm, amma şəxsi təcrübəmdə abort zamanı riskli hal yaşanmayıb. Amma uzun müddət Abşeronda baş mütəxəssis olduğuma görə şöbəmdə çalışan həkimlərdə belə fəsadlar olub. Belə ki, onlarda qanaxmalar olub, qalıqlar qalıb, hətta cərrahi müdaxilələr də baş verib. Özümdə olmasa da belə xəstələrə kömək etmişəm. Təəssüf ki, indi doğuşların çoxu keysəriyyə yolu ilə olur. Bu səbəbdən də uşaqlarda çapıq olur. Çapıq nəticəsində abort etmə riski daha yüksəkdir. Bəzən uşaqlığı çıxarmaq məcburiyyətində qalırıq. Nəticədə hətta ana ölümü ilə nəticələnən hallar baş verə bilir.

**- Qeyri- peşəkar yerlərdə də abort edirlər. Bəs, siz bu barədə nə düşünürsünüz?**

- Mənim fikrimcə, qeyri-peşəkar yerdə abort olmaz. Bu cinayətdir və həmin şəxslər müəssisə ilə birgə cinayət məsuliyyətinə cəlb edilməlidir.

**- Bəs niyə qız uşaqlarına belə aqressiya?**

- Mən qız uşağı olduğu üçün abort etdirmək fikrində olan xanımlara başa salmaq istəyirəm ki, statistika ilə 60 faiz oğlan, 40 faiz qız doğulur. Qızların sayı azdır. Cinsiyyət seçimi etməyin. Günümüzdə cinsiyyəti 7-8 həftədə müəyyən edən analiz var. Tövsiyə edirəm ki, fikriniz qətidirsə heçolmasa vaxtında bu testi etdirin.

**- Niyə məhz qızları abort etdirirlər?**

- Onlar gələcək qızlara təhsil verməyə, onları böyütməyə hazır olmadıqlarını bildirirlər. Ya da düşünürlər ki, qız uşağı ərə gedəcək tək qalacaq. Bunlar hamısı köhnə psixologiyadır. Onlar düşünür ki, qız uşağına zəhmət çəkmək mənasız bir fikirdir. Bu düzgün fikir deyil. Mən bu formada aborta gələn qadınlara deyirəm ki, “Aslanın erkəyi-dişisi olmaz”. Övladın xeyirlisi və xeyirsizi var. Allah adama xeyirli övlad versin. Qız ya oğlan fərq etməz. Özümü göstərirəm ki, “Baxın, mən də qızam. İstəməzdinizmi, sizin də mənim kimi qızınız olsun?!”. Bəlkə sizin abort edəcəyiniz o qız uşağı gələcəyin jurnalisti, həkimi, müəllimidir. Qızları verən Allaha şükürlər olsun. Qızlar bizim gələcəyimiz, analarımız, xalqımızın təməli və davamçısıdır. Qızları sevək, qoruyaq və onları məhv etməyək.

***Ayşən Vəli***


## “Nar” sərfəli smartfon modellərini təqdim edir

***“Nar”indi müştərilərinəsərfəli şərtlərlə ən son “Tecno”və digər smartfon modellərini təqdim edir. Yeni smartfonunuzu ayda cəmi 19,92AZN-dən başlayan qiymətlərləfaizsiz 18 ayaəldə edə bilərsiniz. Üstəlik, ödəniş müddətində xüsusi tariflə aylıq 4 GB internet bonusu və ölkədaxili 300 danışıq dəqiqəsi əldə edəcəksiniz. Təklifdən yararlanmaq üçün sizə ən yaxın rəsmi “Nar” mağazalarından birinə yaxınlaşa bilərsiniz.***

“Nar” mağazalarında smartfon satışı ilə yanaşı, mobil telefonlar üçün müxtəlif cihaz və aksessuarlar, telefon nömrələri, onların bərpası və digər xidmətlər təklif olunur. Mobil operatorun əlçatanlıq strategiyası ilə “Nar” müştəriləri təqdim edilən xidmətlərdən sərfəli qiymətə yararlana bilərlər. Sizə ən yaxın məsafədə yerləşən “Nar” mağazasını tapmaq üçün nar.az saytına daxil olun.



# Yolayrıcında söhbət...



***Payızın güllü-çiçəkli yayı qovub sazağı ilə təbiətə hakim kəsildiyi, durnaların təzəcə qatarlanıb köç etdiyi bir vaxtda gəlmişdi şair bu gəlimli¬-gedimli, son ucu ölümlü dünyaya. Elə gedişi də həmin mövsümdə oldu... Ömür yolayrıcı iki payızı birləşdirdi şairin... Bəlkə elə buna görə şairlər şairi oldu. Axı payız şairlərin fəslidir...***

Varlığı ilə yoxluğu arasındakı zaman kəsiyində bəli, şairlər şairi adlandırılan Məmməd Arazdan bəhs edirəm. 91 yaşına keçid edən Xalq şairindən söhbət açıram. Doğulduğu Şahbuz rayonunun Nursu kəndinə üz tutub:

Kəndim, balacasan, çox balacasan,
Adın yox dünyanın xəritəsində.
Atılıb qalmısan gözlərdən uzaq
Çaylı, baldırğanlı dağ dərəsində.

– deyərərk Nursunu bu çərçivədən çıxarıb nəinki Azərbaycana, özünün adı keçən bütün ölkələrə sığdıran şairdən... Çünki şairlik ruhunu bu kənd vermişdi ona. Çadırdaş, Toxluqaya, Motalqaya, Novlu, Götürgə, Hamar Güney, Haçabənd, Kolarxac, Şahbulaq, Təhnəli bulaq, Damla bulaq, Məzrə düzü – hər biri bir şeiriyyət ocağı olan bu yerləri qarış-qarış gəzib onlardan poetik duyğular almışdı. Bir də ki elə şairlik ruhunu aldığı, bədahətən şeir düzübqoşan anası Cahan xanım onun üçün bir poeziya qaynağı idi. Əməkdar jurnalist, publisist Flora Xəlilzadə Məmməd Arazla bağlı xatirələrində yazır: "Mənim ruhumda böyük Məmməd Araz var. Məmməd Arazın anası Cahan xanım mənim bibimdir. Təhsil ala bilməsə də, sinədəftər xanım idi. Bizim nəsildə hər kəsin bir şeir dəftəri var. Amma Məmməd Araz nəslimizin Xan Çinarıdır".

Şairin ata ocağı olan köhnə daxmaları, kəndin kəhər atları, həmyaşıdları ilə birlikdə kotan nəğməsinə holavar qatmaları, çəpərdən üstünə qəfil su atan o güləyən qızın unudulmaz baxışları onu əlinə qələm alıb bu sevimli tabloları sözə çevirməyə vadar etmişdi. Və kəndi tərk edəndən sonra illərlə arzuladığı, lakin yuxusuna girməyən kənd yolları, onları gəzib dolaşmaq, bir-birinə düyüb yumaq sarımaq, çoban dostlarına çadır qayalardan papaq, hər bulağından bir gilə götürüb evində bir bulaq düzəltmək istəyi heç vaxt reallaşmayan şair üzünü küskünmüş kimi dağlara tutub:

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar?
Leysan, salamat qal, yağ, salamat qal!

– deyib kənddəki xatirələrini qələmi ilə paylaşıb, misralarla bölüşdü.

Böyük şairimiz Məmməd Arazdan söz düşəndə öncə insanın nəzərində əsl vətəndaş, sonra poeziya vurğunu bir şair canlanır. Ömrünü Vətəni, xalqı üçün yaşayan, onu şam kimi əridərək Vətənin daşı olmağı özünə fəxr saydı Məmməd Araz. Onun bənzərsiz Vətən sevgisi bir arzu, bir istəklə:

Vətən mənə oğul desə, nə dərdim?!
Mamır olub, qayasında bitərdim,

– misraları ilə başlayıb,

Azərbaycan – mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan" deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

və yaxud:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik!
Səndən qeyri biz hamımız ölə billik!

– kimi misralarla milyonlarla insanı Azərbaycanın milli istiqlaliyyətinə, ərazi bütövlüyünə, ümumilikdə isə Vətən sevgisinə çağırışı ilə tamamlanır. Çünki Məmməd Araz istiqlaliyyətimiz uğrunda qılıncı qələmi ilə əvəz edən əbədiyaşar sənətkarlarımızdan biri idi. Bizlər üçün örnək, həm də qürurvericidir ki, böyük şairimizin Vətən sevgisi doğma kəndinə məhəbbətindən başlayaraq Naxçıvanla, sonra isə Azərbaycanla bir oldu:

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır
Doğma Şahbuzum da, Naxçıvanım da.

Məmməd Araz harada yaşamasından, hansı ölkədə səfərdə, istirahətdə, müalicədə olmasından asılı olmayaraq, onun Naxçıvandan dünyaya açılan bir pəncərəsi var idi. Və hər zaman deyirdi:

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axar çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.

Araz şairin təxəllüsü, onun yaradıcılığının ilk "qədəmi", eyni zamanda Vətən, millət sevgisinin başlanğıc nöqtəsidir. Gənc bir şairin bu təxəllüsü seçməsi onun Azərbaycan tarixinin bu həsrət motivlərinə dərin ürək yanğısı ilə yanaşmasından irəli gəlir. O, bəzən Araz kimi coşur – mübarizəyə qalxır, bəzən sakitləşir – millətinin ayrılıq, ürək nisgillərinə qulaq asır, bəzənsə bu sakitlikdə bu həsrətə son qoymaq üçün yollar axtarır. "Qələm gəldi əlimə – Araz gəlir dilimə", – deyən şair bu həsrətini "Bu gecə yuxumda Arazı gördüm", "Arazın nəğməsi", "Araz üstə çinar gördüm", "Arazın işıqları", "Mən Araz şairiyəm" və sair kimi şeirləri və "Araz axır" poeması ilə bölüşür.

Məmməd Araz poeziyasında diqqəti çəkən məqamlardan biri də dağ mövzusudur. İndiyədək Azərbaycan ədəbi janrları əsasında yaranan nümunələrin heç birində arxa, kömək, ucalıq rəmzi olan dağa bu qədər müraciət olunmamışdı. Asan deyil, böyük şəhərlərdə yaşayıb onun ucqarlarındakı dağları bu qədər gözəl vəsf etmək. Bəlkə, bu, təbiətin baş tacı olan dağlara bir coğrafiyaçı yanaşmasından irəli gəlirdi? Axı Məmməd Araz coğrafiya müəllimi idi. Bəlkə də, ulu dədəmiz Qorqudun dağları bizlərə ata kimi təqdim etməsindən, Məmməd Arazın isə bu ata ocağına bağlılığından irəli gəlirdi:

Bu dağlar özəyi, özülü möhkəm,
Şair, qayalara, dağlara söykən!
Dağlar sevgisində bir ulu ata,
Dağlar ərköyünlər atası deyil.
Dağlar dağ oyadan qıyıltıları
Bütün dərələrə paylaya bilir.
Daşı qartal etmək dağlara xoşdur,
Qartalın daşlığı kiçildir dağı!
Ən ağır anında dağlara danış,
Ən ali loğmandır o müdrik qoca.

Şairin mənzili sözün ünvanı idi. Bu ünvanda açılan süfrələrə min bir nemət yox,




söz qoyuldu. O süfrənin ətrafına yığılanlar da fərqli, Məmməd Araz ruhuna, sadəliyinə, dünya¬görüşünə uyğun insanlar idi. Onları bir araya yalnız söz toplayırdı, bir-birinin ardınca düzülməklə bir millətin dünənindən, bu günündən, dərdi-sərindən, gələcək arzularından bəhs edən söz... Elə buna görə də şair:

Ötəri hay-küydən qulağım batar,
Yalançı köçəri Yalan köçəri.
Açdım ürəyimi, açdım taybatay,
Xoş gördük, doğru söz, Buyur içəri ...

– deyərək doğru, yerində deyilən, boş vədlərdən uzaq olan sözə dəyər verib, mənəviyyatca zəngin insanların cəmləşdiyi evinin qapısını onun üzünə açır. 1933-cü ilin 14 oktyabrından başlanan bir ömür yolunun 2004-cü ilin 1 dekabrında bitdiyi bir yerdə – yolayrıcında "həyatı ilə söhbətləşən" şair:

Mən özüm bilmirəm nəçiyəm, nəyəm.
Tikdiyim bu daxma, hördüyüm budur.
Odası təptəzə, odu köhnəyəm;
Əlimdən bu gəlir, gördüyüm budur

– deyir. Bu, şairin illərlə yazıb-yaratdıqlarını, Azərbaycan ədəbi mühitində fəaliyyətini kiçiltməsi deyildi, insanlığın zirvəsində dayanan bir Vətən oğlunun təvazökarlığı idi. Onun özü-özünü tərifə ehtiyacı da yox idi. Çünki qiyməti verilmiş, dəyəri bilinmişdi.

Ədəbi-bədii irsimizin kamil bilicisi, milli poeziyamızın, xüsusilə də Məmməd Araz yaradıcılığının vurğunu olan Ulu Öndər Heydər Əliyev xalq şairinə "Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur" kimi yüksək qiymət vermişdir. Ümummilli Liderin qayğısı ilə Xalq şairi Məmməd Araz hələ sağlığında Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, Xalq şairi adlarına layiq görülmüş, dövlət mükafatı almış, "İstiqlal" ordeni ilə təltif edilmişdi. Bu görkəmli söz ustadının bu gün də xatirəsi əziz tutulur. Bu dəyərli fikirləri isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Məmməd Arazın 80 illik yubileyinin ke¬çirilməsi ¬haqqında 2013-cü il 27 sentyabr tarixli Sərəncamından oxuyuruq:"Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü Vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizin və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır".

Dövlət tərəfindən Şahbuz rayonunun Nursu kəndində Məmməd Arazın ev-muzeyinin yaradılması isə hər daşının altında Məmməd Araz yaşayan Naxçıvanda şairin ömür yoluna verilən yüksək qiymət oldu. 2014-cü ilin 1 dekabrında – şairin anım günündə açılan muzey bir zamanlar "Bəlkə bu yerlərə bir də gəlmədim, duman salamat qal, dağ salamat qal", – deyən Xalq şairini bütün ruhu ilə Nursuya – daim xəyallarında yaşatdığı doğma Naxçıvanına qaytardı. Bu muzey yüz illərin çinarına bərabərdir. Çünki onun bünövrəsinə tək nəslinin deyil, bütövlükdə, Azərbaycan poeziyasının Xan Çinarı köklənib. Bu muzeyə – uşaqlığının və gəncliyinin ən xoş anlarının, əlyazmalarının, kitablarının, onun haqqında xatirələrin, təltiflərin əbədiləşdiyi bu ünvana illərdir ki, yüzlərlə məmmədsevər üz tutur, böyük şairi anır. Həm də dövlətimizin insanlara verdiyi dəyərin şahidi olurlar.

***

Yolayrıcında 91 yaşlı Xalq şairi ilə, bax beləcə, söhbətləşib, yaddaşımın bir küncündə qalanları oxucularla paylaşdım... Paylaşdıqca da düşnürəm ki, bu yolayrıcı şairin ömrünü budünyalı-odünyalı edən şərti bir məkandır. Onun əbədi ünvanı isə bizim qəlbimizdir...

***Mətanət Məmmədova***

# Su ehtiyatlarından səmərəli istifadə



## Dövlət başçısının Sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" təsdiqlənib

***Ölkəmizdə əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi və suvarma suyu ilə təminat sosial siyasətin əsas hədəflərindəndir. Ölkə başçısının rəhbərliyi ilə bununla bağlı son illərdə ciddi layihələr reallaşdırılmış və qarşıya hədəflər qoyulmuşdur.***



Cənab Prezidentin hər bir yaşayış məntəqəsinin keyfiyyətli içməli su ilə təmin olunması barədə tapşırıqlarına uyğun olaraq son illər regionlarda, eləcə də Bakı şəhəri və Abşeron yarımadasında genişmiqyaslı layihələr həyata keçirilmiş və bu sahədə əhəmiyyətli işlər görülmüşdür. Ümumilikdə götürsək, son illər regionlarda yaradılmış yeni su mənbələri əhalinin içməli su təminatını xeyli yaxşılaşdırmışdır. Bölgə əhalisinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin edilməsi məqsədilə Şirvan-Muğan, Saatlı-Sabirabad qrup su kəmərləri, Külüllü su qurğuları kompleksi, Quba, Mingəçevir, Xanbulançay sutəmizləyici qurğuları yaradılmışdır. Bu mənbələrdən rayon mərkəzlərinə və bir sıra kəndlərə suyun verilməsi təmin edilmişdir.

Beləliklə, ölkəmizdə su təminatı məsələsi daim diqqət mərkəzində saxlanılmış və dövlət səviyyəsində dəyərləndirilmişdir. Görülən işlərin davamı olaraq, "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının icrası ilə əlaqədar "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" təsdiq edilib. Milli Strategiyanın icrası su ehtiyatlarının artırılmasını, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılmasını, həmin sahədə idarəetmənin müasirləşdirilməsini, habelə beynəlxalq konvensiyaların tələblərinə riayət edilməsi istiqamətində əməkdaşlığın inkişafını nəzərdə tutur. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya həyata keçirəcəkdir.

Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat veriləcək.

Milli Strategiyada Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda müəyyən olunmuş prioritetlərlə yanaşı, BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"ndə nəzərdə tutulan "təmiz su və sanitariya", "iqlim dəyişikliyinə qarşı mübarizə", "dəniz ekosisteminin mühafizəsi" və "torpaq ekosisteminin mühafizəsi" sahəsində məqsədləri əhatə edən hədəflər öz əksini tapmışdır.

### ZƏRURİ İNFRASTRUKTUR VƏ İDARƏETMƏ

Sözügedən Sənəd 2024-2040-cı illəri əhatə etməklə üç mərhələdə həyata keçiriləcəkdir. 2024-2027-ci illəri əhatə edən birinci mərhələdə su ehtiyatlarından səmərəli istifadə üçün zəruri infrastruktur və idarəetmə təkmilləşdiriləcəkdir. Bu çərçivədə su ehtiyatlarının yenidən qiymətləndirilməsi, artırılması, inteqrasiyalı idarə edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından istifadə, tullantı və yağış sularının idarə olunması, suyun keyfiyyətinin yaxşılaşdırılması, su təsərrüfatı obyektlərinin genişləndirilməsi və su itkilərinin azaldılması təmin ediləcəkdir. İkinci mərhədə isə Sənəddə qeyd olunduğu kimi, 2028 2030-cu illəri əhatə edən ikinci mərhələdə təməl şərtlərin möhkəmlənməsi əsasında "təmiz su və sanitariya", "iqlim dəyişikliyinə qarşı mübarizə", "dəniz ekosisteminin mühafizəsi" və "torpaq ekosisteminin mühafizəsi" kimi Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə üstün şəkildə yaxınlaşma təmin ediləcəkdir. Digər mərhələdə isə 2031 2040-cı illəri əhatə edən üçüncü mərhələdə hidroekoloji böhranların innovativ texnologiyalar əsasında effektiv idarə olunması, su ehtiyatlarının artırılması, habelə alternativ su mənbələrindən istifadəni genişləndirməklə dayanıqlı və keyfiyyətli suya tələbatın ödənilməsi təmin ediləcəkdir.



### 2050-Cİ İLƏDƏK SUYA TƏLƏBAT 40 FAİZDƏN ÇOX ARTACAQ

Məlumdur ki, müasir dövrümüzdə dünya ölkələri iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşmişdir. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə mühüm təsir göstərmişdir. Sənədin qlobal trendlər bölməsində qeyd olunduğu kimi, Birləşmiş Millətlər Təşkilatının və digər aparıcı beynəlxalq təşkilatların su ehtiyatlarının vəziyyətinə dair 2024-cü ildə dərc etdiyi hesabata görə dünyada su çatışmazlığı davamlı artır. BMT-nin məlumatına görə, dünyada təxminən 2,2 milyard nəfər əhalinin təmiz içməli suya, 3,5 milyard nəfərin isə təhlükəsiz idarə olunan sanitariya xidmətlərinə çıxışı yoxdur. 2050-ci ilədək suya tələbatın təxminən 40 faizdən çox artacağı gözlənilir ki, bu da su qıtlığı problemini daha da kəskinləşdirə bilər. Davamlı iqlim dəyişikliyi nəticəsində quraqlıq artır. 2002 2021-ci illərdə dünyada 1,4 milyarddan çox insan quraqlıqdan əziyyət çəkmişdir. Dünyadakı şirin suyun 69 faizi buz və qar formasındadır.

### AZƏRBAYCANDA ADAMBAŞINA DÜŞƏN SU EHTİYATI QONŞU ÖLKƏLƏRLƏ MÜQAYİSƏDƏ ƏN AŞAĞI SƏVİYYƏDƏDİR

Ölkənin mövcud su ehtiyatlarına gəlincə isə, Azərbaycan Respublikasının bərpa olunan şirin su ehtiyatları 26,2 milyard kubmetr təşkil edir. Bunun 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri yerli çay axınlarından və 13,2 milyard kubmetri transsərhəd yerüstü sulardan formalaşır. Bərpa olunan şirin su ehtiyatının 17,8 milyard kubmetri yerüstü şirin su ehtiyatlarından formalaşır. Azərbaycanda adambaşına düşən su ehtiyatı da qonşu ölkələrlə müqayisədə ən aşağı səviyyədədir.

Onu da bildirək ki, ölkəmizdə su infrastrukturu davamlı yaxşılaşdırılır. Bu istiqamətdə Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Xudafərin və Qız qalası su anbarları tikilmiş, Oğuz-Qəbələ-Bakı su kəməri çəkilmiş, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi inşa edilmiş, rayon və şəhər mərkəzlərində, həmçinin kənd və qəsəbələrdə içməli su təchizatı, eləcə də tullantı sularının idarə edilməsi üzrə tikinti və yenidənqurma işləri həyata keçirilmişdir. Belə layihələrin icra edilməsi nəticəsində əhalinin içməli su təminatı 67 faizə çatdırılmış, əkin sahələri 1,5 milyon hektara qədər genişləndirilmişdir. İşğaldan azad edilmiş ərazilərdə Suqovuşan, Xaçınçay, Zabuxçay su anbarlarında və 3 su anbarından ibarət Köndələnçay kompleksində bərpa və tikinti işləri aparılmışdır. Qəbələ rayonunda Yengicə su anbarının, Oğuz və Şəki rayonlarının ərazisində isə Əlicançay su anbarının tikintisinə başlanılmışdır. Bundan əlavə, dağ çayları sularının yığılması üçün relyefə uyğun su anbarlarının yaradılması məqsədilə 6 su anbarı, o cümlədən Həkəriçay və Bərgüşadçay su anbarlarının tikilməsi istiqamətində işlərə başlanılmışdır. Başlanğıcını Mingəçevir su anbarından götürən Şirvan və Qarabağ suvarma kanalları yenidən qurulur. Əlavə olaraq, 20 suvarma kanalının, 1 hidroqovşağın və 1 kollektorun yenidən qurulması üzrə işlər görülür. Eyni zamanda, məhdud su ehtiyatı və artan tələbat şəraitində bütün sahələrdə qənaətedici su texnologiyalarının tətbiqi və tullantı sularının təmizlənərək istifadəsi genişləndirilmişdir. Həmçinin, ölkədə dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçirilir.



### MİLLİ STRATEGİYA VƏ HƏDƏFLƏR

Milli Strategiyada qarşıya qoyulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur: su ehtiyatlarının yenidən qiymətləndirilməsi;. su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi; su ehtiyatlarından səmərəli istifadə edilməsi; əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri (kanalizasiya sistemləri və tullantı sularının emal edilməsi infrastrukturunun) ilə təminatının yaxşılaşdırılması; əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması; ekosistemin dayanıqlığı və enerji təhlükəsizliyinin təmin olunması və s.

On altı illik müddəti əhatə edən Milli Strategiyanın icrası məqsədilə müvafiq prioritet istiqamətlərə uyğun tədbirləri əhatə edən 2024-2027-ci illər üzrə Tədbirlər Planı hazırlanmışdır. Tədbirlər Planına uyğun olaraq, 2028-2030-cu və 2031-2040-cı illər üçün tədbirlər planları hazırlanacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan güclü dövlətdir və ildən-ilə gücümüz artmaqdadır

***«Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır.» Dövlət başçısı İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında Azərbaycanın davamlı uğurlarında sabitliyin rolunu əsaslı şəkildə diqqətə çatdırdı.***

Azərbaycanın bugününü müstəqilliyinin bərpasının ilk illəri ilə müqayisə etdikdə ölkədə sabitliyin uğurların davamlılığında əsas faktorlardan biri olduğunu aydın şəkildə görürük. Ölkəmizin 1993-cü ildən bugünədək böyük investisiyalar məkanına çevrilməsində də bu amil əsas rol oynayır. Əminliklə qeyd edirik ki, Azərbaycan xarici investorlar üçün çox cəlbedici ölkədir. Təbii ki, təkcə yaxşı investisiya iqliminin olması şərt deyil. Bunun üçün müstəqilliyimizin ilk ilində mövcud duruma diqqət yetirək. O zaman Azərbaycandakı ictimai-siyasi durumun gərginliyi ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olurdu. Bu fakt da hər kəsə məlumdur ki, Azərbaycan daim yerləşdiyi coğrafi məkana və malik olduğu təbii resurslara görə dünyanın diqqətində olub. Bu marağın müxtəlif dövrlərdə fərqli olması da inkaredilməzdir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə sabitliyin yaradılması, həyata keçirilən «açıq qapı» siyasəti investorlarda bu tərəddüdlərin aradan qalxmasında əhəmiyyətli rol oynadı. Ümummilli Lider bildirirdi ki, ölkəmizin qapısı bura xoş niyyətlə ayaq basan hər bir xarici iş adamının üzünə açıqdır. Bu çağırış da edilirdi ki, investorlar qoyacaqları vəsaitin təhlükəsizliyinə tam əmin ola bilərlər. Bunları yenidən təhlil etməyimizə səbəb müstəqilliyimizin bərpasının ilk illərində ictimai-siyasi vəziyyətin gərginliyinin hansı problemlərə yol açdığını bir daha təsdiqləməkdir. Azərbaycan bu gün sabitlik məkanıdır və investorlar ancaq sabitlik olan yerlərə sərmayə qoyurlar. Bu inam da səsləndirilir ki, gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcək. Təbii ki, bunu şərtləndirən amillər var. Azərbaycanın işğal altında olan torpaqları azadlığa qovuşub. Hər bir ərazimiz özünəməxsus potensiala malikdir. Onlardan səmərəli istifadə etmək məqsədilə həm Prezidentin müvafiq Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü həyata keçirildi, həm də «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» təsdiqləndi. Artıq işğaldan azad edilmiş ərazilərimizin malik olduqları potensialdan istifadə etmək imkanlarına malikik. Tezliklə Qarabağımız və Şərqi Zəngəzurumuz böyük investisiyalar məkanına çevriləcək.

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi hesabına davamlı və sabit iqtisadi inkişafa nail olunması, ÜDM-nin və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması, bütün bölgələrin sosial-iqtisadi vəziyyətinin müasir tələblər səviyyəsinə çatdırılması, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və yerli məhsulların dünya bazarlarına ixrac imkanlarının artırılması, əhalinin etibarlı sosial müdafiəsinin təşkili və rifah halının durmadan yaxşılaşdırılması, orta təbəqənin formalaşdırılması və cəmiyyət həyatında rolunun artırılması bir məqsədə yönəldilir ki, insan amilinə artan diqqətin əsasını təşkil edən göstəricilər daha böyük rəqəmlərlə ifadə olunsun, sosial-iqtisadi sahədə davamlı inkişaf gerçəkləşdirilsin. Ən əsası isə qeyri-neft sektorunun inkişafına investisiya qoyuluşuna, sahibkarlığa əngəl olan halların aradan qaldırılmasına diqqət artırılır. Sənaye və aqrar sahənin inkişafına yönələn islahatların tətbiqi sürətləndirilir. Prezident İlham Əliyevin vurğuladığı kimi, müstəqillik, iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycanın iqtisadi böhrandan ən az itki ilə çıxması üçün yerli resurslardan istifadə imkanları və daxili potensialı tükənməzdir: «Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar. Ölkəmizdə böyük ruh yüksəkliyi var, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorlarında. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür, - çünki özəl sektor sahibkarlığının inkişafı üçün çox ciddi addımlar atılıb, - eyni zamanda, bizim sahibkarlarımızın da məsuliyyətini göstərir. Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır.» Dövlət başçısı bu məqamı da xüsusi qeyd edir ki, əgər bizdə bu güclü təbii resurs olmasaydı, qeyri-neft sektorunu nəyin hesabına inkişaf etdirə bilərdik?

Dövlət başçısı İlham Əliyev bu günlərdə iqtisadi məsələlərə həsr olunmuş müşavirədə də diqqəti bu kimi məsələlərə yönəltdi. «Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir» söyləyən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda, Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və bunun bəhrəsini indi görürük. Ənənəvi sənaye mərkəzlərimizdə, - Bakı şəhərində, Sumqayıt şəhərində, sənaye parkları, yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.

Daxili investisiyaların həcmi artmaqdadır. Bu, sözsüz ki, dövlətimizin sahibkarlığın inkişafına diqqət və qayğısından irəli gəlir. ÜDM-də özəl bölmənin payı 85 faiz təşkil edir. Ötən 21 ildə minlərlə yeni iş yerinin açılması işsizlik, məşğulluq probleminin həllinə öz müsbət təsirini göstərir. Hazırda Azərbaycan kredit reytinqinin səviyyəsinə görə MDB məkanında ən irəlidə gedən ölkələrdəndir. Dünya İqtisadi Forumu inkişafın Azərbaycan modelinin mövcudluğunu təsdiqləməklə yanaşı, bu reallığı da diqqətə çatdırır ki, uzunmüddətli iqtisadi uğurlara nail olmaq üçün əməkdaşlıq zəruridir. Hər bir ölkənin öz inkişaf strategiyası olduğunu nəzərə alsaq səylərin birləşdirilməsinin, təcrübə mübadiləsinin genişləndirilməsinin



***Dövlət başçısı İlham Əliyev bildirir ki, bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür***

vacibliyi daha qabarıq şəkildə özünü büruzə verər. Azərbaycanın iqtisadi inkişafın istiqamətini enerji sektorundan qeyri-enerji sektoruna yönəltməsi yüksək dəyərləndirilir, gələcək üçün uğurlu addım kimi önə çəkilir. Dövlətimizin başçısı İlham Əliyev dünyanın biznes icmasına özümüzü nəinki mühüm coğrafi mövqeyə və təbii sərvətlərə malik, o cümlədən islahatlara, dəyişikliklərə və şaxələndirməyə sadiq ölkə kimi təqdim etməyin vacibliyini bildirir.

Cənubi Qafqaz regionunun iqtisadiyyatının 85 faizinə sahib çıxan Azərbaycan dövlət büdcəsi ilə də regionun ən güclü iqtisadiyyata malik olduğunu nümayiş etdirir. Bu fikir hər zaman qeyd olunur ki, əgər biz doğrudan da inkişaf etmiş ölkəyə çevrilmək istəyiriksə, hər sahədə şəffaflığın yüksək səviyyədə qorunmasına nail olmalıyıq. O da məlumdur ki, ölkəmiz 2011-ci ildə şəffaflığın artırılması və açıq hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin mübadiləsi və beynəlxalq səylərə öz töhfəsini verməsi üçün Açıq Hökumət Tərəfdaşlığına qoşulmuşdur. Bu inam ifadə olunur ki, müəyyən bürokratik əngəllərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar biznes cədvəlində Azərbaycanı daha da yüksək pilləyə çıxaracaq. Reallıqlara söykənərək ölkə Prezidentinin «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Fərmanı bugünümüz üçün geniş imkanlar yaratdı. Strateji Yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Sənədə uyğun olaraq həyata keçirilən tədbirlər, təsdiqlənən Dövlət proqramları, İnkişaf konsepsiyaları və onların uğurlu icrası sonda müəyyənləşdirilən hədəflərə yüksək səviyyədə nail olacağımıza inamı artırır. Cənab İlham Əliyev hər zaman bildirir ki, atılan addımlar Azərbaycanın inkişafının hərtərəfli və sürətli olmasına xidmət edir.

Prezident İlham Əliyev sözügedən müşavirədə onu da xüsusi vurğuladı ki, Milli Məclisdəki çıxışında əsas prioritetlər açıqaydın göstərilib. İlk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr həyata keçiriləcək. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr, bütün bunlar Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu çağırış səsləndirildi ki, elə etməliyik ki, gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək: «Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.»

Ölkəmizdə iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın qarşısında geniş imkanlar açır. Şaxələndirmə siyasətinin uğurlu nəticələri göz önündədir. Dövlətimiz sahibkarlığın inkişafına xüsusi diqqət göstərərək bütün zəruri olan şəraiti yaradır. Bunun üçün təkcə koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin aparıldığı zamanda sahibkarlara diqqət və qayğıya nəzər salmaq kifayətdir. Atılan addımlar qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmağı təmin edir. Bir sözlə, Azərbaycan beynəlxalq maliyyə qurumlarının hesabatlarında da liderliyini qoruyur. Dünya Bankı Azərbaycanı ən islahatçı ölkələr sırasında qeyd edir. Qarşıdakı dövrdə ölkəmiz daha möhtəşəm uğurları, iqtisadi göstəriciləri ilə diqqətdə olacaq. «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»dən irəli gələn vəzifələrin uğurlu icrası müəyyənləşdirilən hədəflərə zamanında nail olacağımızı təmin edəcək.

***Yeganə Əliyeva***





# “Qərb Gürcüstanda hakimiyyət dəyişikliyinə çox maraqlıdır"

***“Qərbin Gürcüstanda maraqları Gürcüstanın onun təsirində qalması və Rusiyaya qarşı istifadə etmək niyyətləri var”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib.O bildirib ki, Ukrayna savaşı başlanandan Qərb Ukrayna ilə bərabər Rusiyaya qarşı ikinci cəbhəni açmağa cəhd etdi: ”Bunu Gürcüstan üzərindən etməyə qərar vermişdi.***



Amma Gürcüstan hakimiyyəti buna qarşı çıxdığına görə münasibətlərdə gərginlik müşahidə olunmağa başladı. Ardınca Gürcüstan Qərbin təzyiqləri və xüsusilə də, onun Gürcüstanda maliyyələşdirdiyi minlərlə ”QHT-lərlə bağlı xarici təsirlərin şəffaflığı haqqında” qanun qəbul etməklə Qərbin maraqlarına bir formada müəyyən zərbə vuruldu. Sonra milli-mənəvi dəyərlərlə bağlı qərarın qəbulu Qərblə Gürcüstan arasında münasibətlərin ciddi şəkildə gərginləşməsinə və münasibətləri pozulma həddinə çıxardı deyə bilərik.Qarşıda gələn seçkilərdə Qərb Gürcüstanda hakimiyyət dəyişikliyinə çox maraqlıdır. Bunun üçün Gürcüstan daxilindəki müxalif qüvvələrə ciddi şəkildə dəstək verməyə çalışır. Bununla bağlı həm maliyyə, həm təbliğat dəstəyi verilir. Eyni zamanda seçkidən sonra küçə etirazlarını həyata keçirmək üçün müəyyən planlar qurulur. Gürcüstan hakimiyyəti də bundan xəbərdardır. Hakimiyyət də buna hazırlaşır.

Gürcüstan üzərində hal-hazırda Qərblə Rusiya arasında ciddi bir rəqabət yaşanmaqdadır. Gürcüstan Güney Qafqazda bizim tərəfdaş qonşumuz olduğu üçün orada baş verən hadisələrin də bölgəyə kifayət qədər təsiri olacaq. Ona görə də Azərbaycan Gürcüstanda proseslərin dinc məcrada və siyasi yollarla həllindən yanadır. Seçkilərin nəticələrinin bütün tərəflər tərəfindən qəbul edilməsi doğru hesab olunur. Xalqın səs verdiyi siyasi qüvvə hökuməti formalaşdırmalıdır. Hər halda bizi qarşıdakı iki həftədə kifayət qədər ciddi proseslər gözləyir. Ümid edirik ki, Gürcüstanda hal-hazırdakı durum Gürcüstan xalqının iradəsi əsasında seçkilər yolu ilə hökumətin formalaşması ilə yekunlaşacaq. Həm Gürcüstan, həm də Cənubi Qafqaz növbəti gərginlikdən qaça biləcək”.

***Söylü Ağazadə***



# “Ekoloji klublar”ın mahiyyəti NƏDƏN İBARƏTDİR?



EKSPERT MÜNASİBƏT BİLDİRDİ

“COP29-un Azərbaycanda təhsil sahəsinə verəcəyi töhfələr və bu istiqamətdə məktəblərin atacağı addımlar ölkənin ekoloji maarifləndirmə səviyyəsini yüksəltmək, ekoloji problemlərin həllinə yönəlik düşüncə tərzini formalaşdırmaq və gənc nəslin bu mövzuya dair bilik və bacarıqlarını artırmaq üçün əhəmiyyətli ola bilər. İqlim dəyişikliyi və davamlı inkişaf prinsipləri üzrə qlobal razılaşmaların müzakirə olunduğu bu tədbir, xüsusilə məktəblərin tədris proqramlarına yeni yanaşmaların daxil edilməsinə imkan verə bilər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

O bildirib ki, COP29-un Azərbaycanda təhsil sahəsinə verəcəyi ən önəmli töhfələrdən biri ekoloji təhsil mövzusunun daha geniş şəkildə məktəb proqramlarına inteqrasiya olunması olacaq: “Artan ekoloji problemlər fonunda, bu mövzunun dərsliklərə və fənn proqramlarına daxil edilməsi tələbələrin ekoloji şüurunun və məsuliyyət hissinin formalaşdırılmasına kömək edəcək. Bundan əlavə, bu mövzuda nəzəri biliklər tədris edilərkən, praktiki fəaliyyətlərə də xüsusi yer ayrılmalıdır. Məsələn, məktəblər ətraf mühitin qorunması ilə bağlı layihələr və təcrübələr vasitəsilə uşaqların əyani şəkildə ekoloji problemləri daha yaxşı anlamaq və həll yolları axtarmaq bacarıqlarını inkişaf etdirə bilərlər.

Məktəblərdə ekoloji tədris yalnız mövcud fənlərin tərkibində verilməməli, həm də ayrıca fənn kimi tədris edilməli və bu istiqamətdə xüsusi müəllimlər hazırlanmalıdır. Uşaqlar ekoloji problemlərlə qarşılaşan bir dünyada yaşadıqları üçün bu sahədə dərin biliklərə sahib olmalıdırlar. COP29 kimi beynəlxalq tədbirlər təhsil sisteminə təlim proqramlarının yenilənməsi, ekoloji mövzuların inteqrasiyası və müəllimlərin bu sahədə hazırlanması üçün güclü stimullaşdırıcı faktor kimi çıxış edə bilər.

Məktəblərin bu istiqamətdə tətbiq edə biləcəyi üsullardan biri “ekoloji klublar” yaratmaqdır. Bu klublar vasitəsilə uşaqlar müxtəlif ekoloji tədbirlərdə iştirak edə bilər, ağacəkmə aksiyaları, tullantıların təkrar emalı layihələri və ətraf mühitin mühafizəsinə yönəlik digər tədbirlərlə məşğul ola bilərlər. Beləliklə, uşaqlar təcrübə yolu ilə ekoloji biliklərini möhkəmləndirəcək, həm də yaşadıqları cəmiyyətin ekoloji problemlərinə həssaslıq göstərəcək fərdlər kimi yetişəcəklər. Bundan əlavə, rəqəmsal təhsil texnologiyalarının da ekoloji tədrisdə rolu artırılmalıdır. Xüsusi platformalar və tətbiqlər vasitəsilə şagirdlər interaktiv şəkildə ekoloji məlumatlar əldə edə bilər və qlobal ekoloji problemləri daha dərindən başa düşmək imkanı qazanacaqlar. Məktəblər həmçinin ekoloji mövzulu virtual dərslər, vebinarlar və mütəxəssislərlə interaktiv görüşlər təşkil etməklə bu sahədə şagirdlərin maraq dairəsini genişləndirə bilər.

COP29 həmçinin məktəblərə davamlı inkişaf prinsiplərinin təbliğ olunması və “yaşıl məktəb” konsepsiyasının tətbiqi üçün də bir zəmin yarada bilər. Bu konsepsiyanın həyata keçirilməsi, məktəblərin enerjiyə qənaət, suyun təkrar istifadəsi və tullantıların azalması kimi sahələrdə nümunə rolunu oynamasına imkan verərdi. Şagirdlər öz məktəblərində davamlılıqla bağlı həyata keçirilən tədbirlərin şahidi olduqda, bu təcrübəni öz şəxsi həyatlarına da tətbiq etməyə meyilli olacaqlar.

Yekun olaraq, COP29-un Azərbaycanda təhsil sahəsinə verəcəyi töhfələrdən biri də iqlim dəyişikliyi və ətraf mühit problemləri ilə bağlı tədrisin gücləndirilməsi olacaq. Məktəblər bu istiqamətdə uşaqların bilik və bacarıqlarını artırmaq üçün praktiki fəaliyyətlər, rəqəmsal resurslar və layihələr vasitəsilə uşaqları ətraf mühit problemlərinə həssas yanaşmağa təşviq etməlidir”.

***Səbinə Hüseynli***

***Xəbər verdiyimiz kimi, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvanın Gürcüstanla Osetiya və Abxaziya arasında sülhün əldə edilməsinə yardım etməyə hazır olduğunu bildirib. "Aydındır ki, indiki Gürcüstan rəhbərliyi keçmişi sadəcə olaraq vicdanla qiymətləndirir. Lavrov BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirakından sonra keçirilən mətbuat konfransında deyib: "Biz tarixi sülh istəyirik". Hakim "Gürcü arzusu" partiyasının baş katibi Kaxa Kaladzenin jurnalistlərə verdiyi məlumata görə, Gürcüstan hakimiyyəti Rusiya xarici işlər nazirinin bəyanatına müsbət reaksiya verib.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Gürcü ekspertlər: "Qərb Gürcüstanı Rusiyaya qarşı istifadə etmək istəyir, amma bu, bizə lazım deyil"

"Rusiyanın Gürcüstanın Abxaziya və Cənubi Osetiya ilə sülh əldə etməsini alqışlaması və buna töhfə verməsi təbii ki, müsbət haldır",- deyə o bildirib. Kaladze eyni zamanda qeyd edib ki, Tbilisi Moskvadan bu məsələdə "effektiv addımlar" gözləyir.

Gürcü ekspertlər və politoloqlar bu barədə fikirlərini "Caliber" analitik mərkəzinə açıqlayıblar. Şərhləri oxucularımıza təqdim edirik.








Qafqaz İslam Araşdırmaları Mərkəzinin direktoru, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti Şota Aphaidze əmindir ki, Rusiya XİN rəhbərinin belə bir bəyanatı özlüyündə müsbət haldır. Bu fakt Rusiya Federasiyasının danışıqlara hazır olduğunu nümayiş etdirir və Gürcüstan tərəfi bu fürsətdən istifadə etməyə çalışmalıdır.

"Gürcüstan üçün sonda müsbət nəticə əldə olunmasa belə, bu şans yenə də istifadə edilməlidir. Hamımız çox gözəl başa düşürük ki, indi Rusiya-Ukrayna münaqişəsi və anti-Rusiya sanksiyaları fonunda Rusiyanın Gürcüstanla münasibətlərin normallaşmasına həqiqətən ehtiyacı var.

Baxmayaraq ki, Rusiya bu əraziləri öz ərazisi kimi tanıyıb və orada rus qoşunları var, Moskva həll yolları axtara bilər, amma eyni zamanda bu uzun prosesdir. Mən gözləmirəm ki, o, qoşunlarını dərhal bu rayonlardan çıxarmağa birbaşa razılıq verəcək, lakin bu, ən azı müsbət addımdır. Moskva Gürcüstan hakimiyyətinin özünə qarşı müsbət əhvalda olmasına çalışır, ona görə də Gürcüstan rəhbərliyi dialoqa girməyə çalışmalıdır.

Diplomatiya və beynəlxalq hüquq, ilk növbədə, heç bir şeyin baş vermədiyi müəyyən razılaşmaların qurulmasıdır. Konfliktologiya isə bu məsələləri dərindən öyrənən bir elmdir və bizə- konfliktoloqlara və beynəlxalq hüquq sahəsində mütəxəssislərə aydındır ki, bu məsələni bir-iki ilə belə sadə həll etmək olmaz. Lakin bu cür danışıqlar başlasa, ən azı ikitərəfli münasibətlərin bərpasına töhfə verəcək, çünki bu və ya digər şəkildə tərəflər həll yollarının tapılması variantlarını təklif edəcəklər, bu da dialoqun inkişaf edəcəyi deməkdir. Və bu variantlar nədən ibarət olacaq, ərazilərin beynəlxalq hüquqi statusu necə olacaq: geniş muxtariyyət, konfederasiya və ya birgə idarəetmənin hansısa başqa forması gələcək razılaşmaların işidir.

Amma bu vəziyyətdə ən əsası odur ki, heç bir yerdən ora gəlməmiş olan, qədim zamanlardan bəri bu ərazilərdə məskunlaşan indiki gürcü qaçqınları öz evlərinə qayıtmalıdırlar. Eyni şey abxaz qaçqınları ilə də baş verməlidir. Gürcüstan vətəndaşları isə öz evlərinə qayıtdıqdan sonra bu ərazilərin statusu və gələcəyi ilə bağlı səs verməyə başlaya bilərlər. Hər kəs öz hüquqlarına görə bərabər olmalıdır- niyə osetinlərin səsvermə hüququ olmalıdır, gürcülərin isə yox? Bu, bütün beynəlxalq normaların pozulmasıdır: vaxtilə Gürcüstanda etnosid törədilib və bunu hamı yaxşı bilir.

İndi seçki kampaniyası gedir, mən hesab edirəm ki, "Gürcü arzusu"nun da ölkənin ərazi bütövlüyünü bərpa etmək, bu əraziləri öz nəzarətinə qaytarmaq istəməsi tamamilə açıq-aşkar görünür– və bu, tamamilə aşkar, məntiqi istəkdir. Ona görə də təəccüblü deyil ki, gürcü tərəfdən sülhə və anlaşmaya ümidverici çağırışlar gəlir. İkinci sual, "Gürcü Arzusu"nun belə bir vəzifənin öhdəsindən necə gələcəyidir, lakin proses özü artıq irəliləyib və əsas məsələ budur", - Ş.Aphaidze hesab edir.

Politoloq, "SIKHA Foundation" tədqiqat mərkəzinin təsisçisi Arçil Sixarulidzenin fikrincə, "Gürcü Arzusu"nun lideri Bidzina İvanişvilinin osetin xalqından üzrxahlıq çağırışını gürcü tərəfi artıq Gürcüstan tərəfi tərəfindən verilib. Bir dəfə də Mixail Saakaşvili tərəfindən abxaz dilinin ölkənin ikinci dövlət dili olmasını təklif edildi.

"İvanişvilinin sözlərinin Gürcüstanda bəziləri arasında niyə belə reaksiyaya səbəb olduğu tam aydın deyil. Üzr istəmək lazımdır- bu qaçılmazdır, xüsusən də Gürcüstan özünü dominant tərəf hesab edirsə. Lavrovun bəyanatına gəlincə, bu, tamam başqa məsələdir, gürcü tərəfi aşkar həqiqətdən, xüsusən də istənilən böhranın həm də fürsət olmasından nə dərəcədə xəbərdardır. Təəssüf ki, özlərini qərbyönlü hesab edən gürcülər hesab edirlər ki, "böhrandan kənara çıxmaq və Qərbin dediyini etmək lazımdır, lakin Rusiyadan gələn təşəbbüslər qəbul edilməməlidir". Amma əgər Gürcüstan özünü müstəqil aparmağa hazırdırsa, bu halda Moskvadan nə alına biləcəyini sınaqdan keçirmək olar. Və bunun müqabilində nə verilməlidir- diplomatiyanın əsas məqsədi budur.

Amma təəssüf ki, gürcü siyasi elitası bütün bu illər ərzində öz diplomatiyasını həyata keçirməkdən çəkinir, o, sadəcə olaraq, bütün diplomatiyanı bir vaxtlar Moskva olan hansısa yeni metropolisə həvalə etmək istəyir- və bu metropol bizim üçün hər şeyi həll etsin. Amma bunlar çox boş ümidlərdir",- deyə A.Sixarulidze yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***



SON SƏHİFƏ
SƏS
12 oktyabr
2024-cü il

# Qazaxda 18 tələbə dönərdən zəhərlənib - TƏBİB açıqlama yaydı




***Bakı Dövlət Universitetinin (BDU) Qazax filialının 18 tələbəsi bufetdə dönərdən zəhərlənib. TƏBİB bununla bağlı məlumat yayıb. Məlumatda qeyd olunur ki, 10.10.2024-cü il tarixində saat 19:00-dan başlayaraq Qazax Rayon Mərkəzi Xəstəxanasına ümumilikdə 18 nəfər (7 kişi, 11 qadın cinsli olmaqla) zəhərlənmə şübhəsilə müraciət edib.***

Bildirilir ki, onların hər birinə zəruri tibbi xidmətlər göstərilib. "16 nəfər ambulator müalicə üçün evə buraxılıb, hazırda 2 nəfərin müalicəsi Təcili tibbi yardım bölməsində davam etdirilir, vəziyyətləri orta ağır olaraq qiymətləndirilir", - məlumatda qeyd olunub.

# Çinlidə fərasətə bax - Bakıda 330 min manatlıq saat oğurlayıb...

***Bakıda 330 min manat dəyərində saat oğurlanıb. Hadisə Yasamal rayonunda yerləşən "VMF Continental" mağazasında qeydə alınıb. Oraya gələn naməlum şəxs 330 min manat dəyərində olan " Breguet" markalı qol saatını gizli yolla talayıb.***

Faktla bağlı Cinayət Məcəlləsinin 177.3.2-ci (oğurluq, külli miqdarda ziyan vurduqda) maddəsi ilə cinayət işi başlanılıb. İstintaq zamanı hadisəni törətməkdə şübhəli bilinən Çin vətəndaşı, 1977-ci il təvəllüdlü Zhang Guomin tutulub. Hazırda istintaq davam edir.



**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Yol polisindən sürücülərə XƏBƏRDARLIQ

***Sinoptiklərin verdiyi məlumata əsasən, bu gündən başlayaraq oktyabrın 15-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, kəskin dəyişməsi, bəzi rayonlarda külək və leysan xarakterli yağışla müşahidə olunacağı gözlənilir. Baş Dövlət Yol Polisi İdarəsi hava şəraiti ilə əlaqədar yollarda yarana biləcək fəsadların qarşısının alınması üçün hərəkət iştirakçılarına müraciət edib.***




"Yola çıxarkən ehtiyatlı olmağı, yol hərəkəti qaydalarına ciddi riayət etməyi, sürücülərdən sürət həddini hava şəraitinə uyğun seçməyi, külək tutan açıq ərazilərdə ehtiyatlı olmağı, yağışlı havada daha çox ara məsafəsi saxlamağı, qəfil manevr və ya kəskin tormazlama etməkdən çəkinməyi tövsiyə edirik. Qeyri-sabit hava şəraitinin yarada biləcəyi çətinlikləri nəzərə alaraq, piyadaları da yollarda məsuliyyətli olmağa çağırırıq", - deyə müraciətdə bildirilir.

## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

**Bəstəkarlıq kafedrası**
**Kafedra müdiri**

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.
Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.
Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 2700**